

**Yevgeni Mixaylov: "Müttəfiqlik Rusiya və Azərbaycanın mövqelərini möhkəmləndirəcək"**

4

# "Şuşa ili"

## Azərbaycanın müstəqillik tarixində hər zaman yaddaqalan olacaq

Səs
№ 034 (6475) 23 fevral 2022-ci il. Qiyməti 60 qəpik




4

# Azərbaycan-Rusiya münasibətləri: yeni tarix, yeni mərhələ!

3



"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamə imzalanıb

## Bəşər tarixində vəhşilik aktı: Xocalı soyqırımı




8

# Azərbaycanda yol terroru:

10



## MÜQƏSSİR KİMDİR?

# Neymar: "Pelenin rekordunu qıracam"



16

PSJ-nin və futbol üzrə Braziliya millisinni futbolçusu Neymar yığmadakı karyerası barədə danışıb. İspaniyanın nüfuzlu "Marca" nəşrinin yazdığına görə, 29 yaşlı hücumçu millinin bombardiri olmaq...



## Erməni bloger: "Rus hərbçiləri üçün gecə klubları və barlar açılmalıdır"

12

Davamlı olaraq rəsmi İrəvanın mövqeyinə qarşı çıxması ilə seçilən erməni blogeri İşxan Verdyan Qarabağ...



## Rus ekspert: "Rusiya-Azərbaycan müttəfiqliyi bəzi qüvvələrin xoşuna gəlməyəcək, amma bu, vacibdir"

15

İqor Korotçenko: "Rusiyanın indi etməli olduğu şey, ilk növbədə, Azərbaycanın Qarabağ bölgəsindən qanunsuz...

# “Bizim münasibətlərimiz çox dinamik şəkildə inkişaf edir”

## Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında təkbətək görüş olub

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 22-də Rusiya dövlətinin başçısı ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə dövlət başçıları çıxış etdilər.**

Rusiya Prezidenti Vladimir Putin:

-Salam. Təəssüf ki, pandemiya bizim normal ünsiyyət saxlamağımıza və görüşməyimizə imkan vermir. Bu da müəyyən dərəcədə narahatlıq doğurur, lakin hər halda Sizi görməyə çox şadam. Sağ olun ki, təklifimi qəbul etdiniz.

Sizin səfəriniz ikitərəfli münasibətlərimizdə əlamətdar hadisə - diplomatik münasibətlərimizin yaradılmasının 30 illiyi ərəfəsində keçir. Bu gün biz Qarşılıqlı müttəfiqlik əlaqələri haqqında Bəyannamə imzalayacağıq. Tamamilə aşkardır ki, bu, bizim münasibətlərimizin inkişafında yeni mərhələdir və şübhəsiz, bu, o cümlədən bütövlükdə hələ sona qədər nizamlanmamış, lakin həllində irəliləyiş əldə edilmiş Qarabağ münaqişəsinin tənzimlənməsinə nail olduqdan sonra mümkün olub.

Fikrimcə biz indiki həyatda hələ qarşıya çıxan problemlərə baxmayaraq, hər halda məmnun ola bilərik ki, hazırda olduğumuz səviyyəyə çatmışıq. Əlbəttə, bu barədə biz bu gün ətraflı danışacağıq. Lakin istənilən halda həm orada yaşayan bütün insanların təhlükəsizliyinin təmin edilməsi baxımından, həm də ticari-iqtisadi əlaqələrin inkişafı, nəqliyyat kommunikasiyalarının açılması baxımından artıq müəyyən razılaşmalar var.

Bilirəm ki, hələ mübahisələr var, üzərində işləniləsi məsələlər var. Lakin biz öz tərəfimizdən bu prosesin dinc vasitələrlə getməsi, sülh yolu ilə inkişaf etməsi və əlbəttə, bu prosesə cəlb edilmiş bütün tərəflərin razı qalmasına nail olmaq üçün əlimizdən gələni edəcəyik.

Yeri gəlmişkən, həm Rusiya Federasiyası, həm də bilirəm, Sizin digər qonşularınız bu məsələlərin, o cümlədən nəqliyyat kommunikasiyaları məsələlərinin həll edilməsində maraqlıdırlar, ona görə ki, bunda təkcə Azərbaycan və Ermənistan maraqlı deyil, - Rusiya da, təkrar edirəm, Sizin bütün başqa qonşular da maraqlıdırlar.

Ticari-iqtisadi əlaqələrə gəldikdə, onlar durmadan inkişaf edir. Pandemiyaya baxmayaraq, keçən il bizdə əmtəə dövriyyəsi 16 faizdən çox artıb və bu, çox yaxşı göstəricidir. Sizə təşəkkür edirik ki, Siz bizim qarşılıqlı fəaliyyətimizi dəstəkləyirsiniz. Bu baxımdan bizim çox ciddi planlarımız var. Bizim iqtisadi əlaqələrimiz yetərincə yaxşı şaxələndirilib və bu, irəliyə hərəkətin davam etməsi üçün yaxşı ilkin şərait yaradır.

Bizim üçün həssas və mənim fikrimcə Azərbaycan üçün də çox vacib olan humanitar məsələlərin həllini, ilk növbədə, rus dilinin inkişafını dəstəklədiyinizə görə Sizə təşəkkür edirik. Mən bilirəm ki, Azərbaycanın 300 məktəbində rus dili fəal öyrənilir, bu dil populyardır. Əlbəttə, biz bunu gələcəkdə də hər vasitə ilə dəstəkləyəcəyik.

Regional əlaqələr yetərincə səmərəli inkişaf edir.

Bir də, əlbəttə, fürsətdən, Sizin səfərinizdən istifadə edərək Sizi Ukrayna istiqamətində bizdə nələr baş verməsi barədə məlumatlandıracağam. Bilirsiniz ki, dünən Rusiya



Donbasın iki xalq respublikasının suverenliyinin tanınması haqda qərar qəbul edib.

Bəri başdan demək istəyirəm, biz bu mövzuda - Rusiyanın imperiya sərhədləri daxilində imperiyanı bərpa etməyə hazırlaşması mövzusunda spekulyasiyaları görürük və demək olar ki, əvvəldən görürdük. Bu, əsla həqiqətə uyğun deyil.

Sovet İttifaqı dağılandan sonra Rusiya bütün yeni geosiyasi reallıqları etiraf etdi və Sizin də bildiyiniz kimi, postsovet məkanında yaranmış bütün ölkələrlə, müstəqil dövlətlərlə bizim qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsi üzərində fəal iş aparır. Hətta məsələn, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi kimi kəskin, çox kəskin vəziyyətlərdə də biz həmişə çox səliqəli hərəkət etmişik, bu prosesə cəlb edilmiş bütün dövlətlərin maraqlarını nəzərə almışıq və həmişə qarşılıqlı məqbul həllərə nail olmağa çalışmışıq.

Təəssüf ki, Ukraynada dövlət çevrilişindən sonra biz Ukrayna ilə qarşılıqlı əlaqələrin bu səviyyəsini və keyfiyyətini görmürük, əvvəlki səviyyə yox olub. Vurğulamaq istəyirəm, məhz dövlət çevrilişindən və bu çevrilişi edənlər tərəfindən hakimiyyətin qanunsuz ələ keçirilməsindən sonra.

İndicə, Sizinlə görüşdən əvvəl Qazaxıstan Prezidenti ilə söhbət edirdim. Fikrimcə, bu, Rusiyanın qonşularımızın suverenliyini yalnız dəstəklədiyini, onu hər vasitə ilə möhkəmləndirdiyini göstərən ikinci çox yaxşı nümunədir. Qazaxıstan nümunəsi də bizim məhz bu cür siyasətimizə dəlalət edir, onu təsdiq edir.

Bildiyiniz kimi, biz beynəlxalq terrorizmin xarici təcavüzü ilə əlaqədar Qazaxıstan rəhbərliyinin xahişi ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində Qazaxıstanı dəstəklədik. Bu problem aradan qalxan kimi Qazaxıstan rəhbərliyinin xahişi ilə biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının kontingenti çərçivəsində özümüzün bütün silahlı qüvvələrimizi oradan çıxartıq və bütün istiqamətlər üzrə Qazaxıstan ilə əməkdaşlığı davam etdiririk. Şübhəsiz, bu iş həm Rusiyanın, həm də Qazaxıstanın xeyrinədir və Qazaxıstanın suverenliyini möhkəmlədir.

Biz bundan sonra da bütün qonşularımızla münasibətdə bu cür hərəkət etmək niyyətindəyik. Təkrar edirəm, Ukrayna ilə bağlı vəziyyət başqadır. Bu, onunla bağlıdır ki, təəssüflər olsun, üçüncü ölkələr tərəfindən bu ölkənin ərazisindən Rusiya Federasiyasına qarşı təhdidlər yaratmaq üçün istifadə edilir. Məsələ yalnız bundadır.

İndi bizim hər şey barədə daha ətraflı söhbət etmək imkanımız olacaq. Mən təfərrüat barədə Sizi məlumatlandıracağam. İstənilən halda demək istəyirəm ki, Sizi görməyə çox şadam.

Azərbaycan Prezidenti İlham Əliyev:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Rusiyaya rəsmi səfərə dəvət etdiyinizə görə sağ olun. Şadam ki, bizim əlaqələrimiz müntəzəm xarakter daşıyır. Sizinlə noyabrın sonunda görüşmüşdük, o vaxtdan üç aydan az keçib. Bu gün də mən Rusiya Federasiyasındayam. Bütün bunlar ona dəlalət edir ki, bizim münasibətlərimiz çox dinamik şəkildə inkişaf edir. Biz daim əlaqə saxlayırıq, zəngləşirik. Əlbəttə, şəxsi görüşlərimiz həmişə xüsusi əhəmiyyət kəsb edir, xüsusən ona görə ki, Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında ən mühüm sənədin imzalanması ərəfəsində. Rəmzi haldır ki, bu görüş, Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində keçir. Fikrimcə, bu sənəd ölkələrimiz, qarşılıqlı əlaqələrimiz, həmçinin regional təhlükəsizlik üçün birmənalı olaraq çox müsbət əhəmiyyət kəsb edəcəkdir. Biz ölkələrimiz arasında yaranmış dostluq, mehriban qonşuluq münasibətlərini çox yüksək qiymətləndirir, onları möhkəmləndiririk. Qarşılıqlı müttəfiqlik haqqında Bəyannamənin imzalanması son illərdə bizim necə fəal işlədiyimizi və qarşılıqlı əməkdaşlığın potensialını artırmağımızı çox yaxşı illüstrasiya edir. Bu, sadəcə sözlər, sadəcə niyyətlər deyil, həm də konkret işlər olub. Bəyannamə yetərincə genişdir. Onun 40-dan çox bəndi var. Bizim qarşılıqlı fəaliyyətimizin ən mühüm sahələrini əhatə edir və artıq dediyim kimi, bizim ikitərəfli münasibətlərin gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Bütövlükdə ölkələrimiz arasında siyasi münasibətlər son illərdə həmişə çox müsbət inkişaf edir. Hazırda bu münasibətlər ən yüksək səviyyəyə çatır. Ticari-iqtisadi əlaqələrdə yaxşı dinamika olması barədə Sizin fikrinizə şərik olduğumu bildirmək istərdim. Bizim əmtəə dövriyyəsinin həcmi artıq 3 milyard dolları aşıb və Sizin qeyd etdiyiniz kimi 16 faiz artıb. Bu ildə də artım perspektivi var, yanvar ayının göstəriciləri buna dəlalət edir. Biz çoxsaylı konkret layihələri həyata keçiririk. Əlbəttə, bu gün bu barədə də danışacağıq, humanitar sahədə gördüyümüz işləri yüksək qiymətləndirdiyinizə görə sağ olun.

Təşəkkür edirəm ki, Siz bunu həmişə vurğulayırsınız, bizim səylərimizi qiymətləndirirsiniz və düzgün olaraq qeyd etdiyiniz kimi, bu, həm Rusiya üçün, həm də Azərbaycan üçün vacibdir. Məktəblər məsələsinə gəldikdə, bir qədər dəqiqləşdirmək istərdim. Azərbaycanda təhsilin rus dilində olduğu 340-a yaxın məktəb var, bu məktəblərdə 140 mindən çox uşaq təhsil alır. Azərbaycanda 15 mindən çox vətəndaş ali məktəblərdə rus dili bölmələrində oxuyur. Mənim fikrimcə, bu, bizim münasibətlərimizin və gələcək əlaqələrimizin çox mühüm əsasıdır, ona görə ki, rus dili keçmiş Sovet İttifaqı ölkələrini həmişə birləşdirirdi və əlbəttə, rus dilini bilmədən gələcək nəsillərin əlaqələrini nizamlamaq çox çətin olar. Buna görə də, dediyim kimi, bu, həyatımızda çox mühüm amildir.

Əlbəttə, Siz qeyd etdiyiniz kimi, bu gün bizim regionda vəziyyət, münaqişədən sonrakı vəziyyət barədə danışacağıq. Rusiya Federasiyası Azərbaycan ilə Ermənistan arasında müharibənin dayandırılmasında və münaqişənin nizamlanmasının qaynar mərhələdən siyasi diplomatik sahəyə keçirilməsində çox mühüm rol oynayıb. 2020-ci ilin noyabrında Sizin fəal iştirakınızla imzalanmış üçtərəfli Bəyanat bu çoxillik münaqişəni nizamlamağımıza imkan verdi. Bu gün yeni vəziyyət yaranıb, regionda bugünkü geosiyasi reallıqlar dünya birliyi tərəfindən qəbul edilib. Rusiya Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, nəqliyyat kommunikasiyalarının açılması, normal qonşuluq münasibətlərinin qurulması üçün imkanlar yaradılması işində çox mühüm, mən deyərdim əsas rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Ümidvarıq ki, erməni tərəfi də bizim kimi, öz tərəfindən 2020-ci ilin noyabrında imzalanmış Bəyanatın bütün bəndlərini yerinə yetirəcək.

Beləliklə, gündəliyimiz çox genişdir, bu səfər xüsusi səfərdir. Mən Prezident kimi 48-ci dəfədir ki, Rusiyadayam. Lakin bu, xüsusi haldır. Bu gün biz tarixi xarakterli çox mühüm sənəd imzalayacağıq. Dəvətə görə bir daha təşəkkür edirəm.

Daha sonra Moskvada ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamə imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar.

# Azərbaycan-Rusiya münasibətləri: yeni tarix, yeni mərhələ!

## "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamə imzalanıb

**Məlum olduğu kimi, 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında" Bəyannamə imzalayıblar. Bu xüsusda qeyd edə bilərik ki, Azərbaycanın çoxşaxəli müstəqil siyasəti, region ölkələri və beynəlxalq aləmlə münasibətləri uğurlu əsaslara söykənir.**



Daha dəqiq desək, Azərbaycan öz milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdür. Eyni zamanda, Azərbaycan xarici siyasətində qlobal həmrəyliyə və beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verir. Belə ki, Azərbaycanın BMT-dən sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına hazırkı sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər və atdığı praktiki addımlar da bunu təsdiq edir. O cümlədən, qonşu ölkələrlə yüksək səviyyəli münasibətlərin qurulması Prezident İlham Əliyevin prioritet hesab etdiyi sahələrdəndir. Vətən müharibəsində tarixi Zəfər qazanılmasında bu amil böyük rol oynayıb. Prezident İlham Əliyev 2021-ci il noyabrın 20-də xalqa müraciətində Ermənistanı nəzərdə tutaraq deyib: "Digər tərəfdən, qonşularla normal münasibət qura bilməyən ölkə necə inkişaf edə bilər?".

### Tarixi reallıq!

2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalayıblar. Sənəd hər iki ölkənin parlamentləri tərəfindən təsdiq olunub. Bəyannamə Türkiyə ilə Azərbaycan arasında münasibətləri müttəfiqlik səviyyəsinə yüksəldib, Azərbaycan öz təhlükəsizliyi üçün əlavə zəmanət əldə edib. Eyni zamanda, Azərbaycan türk dövlətləri ilə münasibətlərə mühüm önəm verir. Belə ki, 2021-ci ildə adı Türk Dövlətləri Təşkilatına dəyişdirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2009-cu ildə Naxçıvan sazişinə əsasən təsis edilməsi Azərbaycanın öz milli kimliyinə, kökünə verdiyi önəmin bariz bir nümunəsidir.

### Azərbaycanın qonşu Gürcüstan və İranla münasibətləri yüksək səviyyədədir

Çoxşaxəli xarici siyasət gündəliyinə uyğun olaraq ölkəmizin Avropa İttifaqı ilə münasibətləri də yüksələn xəttlə inkişaf edir. Bu ilin mart ayında Bakıda Azərbaycan və Avropa İttifaqı arasında növbəti təhlükəsizlik dialoqu keçiriləcək. Ölkəmiz bu ilin birinci yarısında Avropa İttifaqı ilə ikitərəfli saziş üzrə danışıqları bitirmək və sazişi imzalamaq niyyətindədir.

Rəsmi Bakı Avropanın enerji təchizatında, köhnə qitənin enerji təhlükəsizliyinin təmin edilməsində çəkisi durmadan artır. Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin təşəbbüskarı Azərbaycandır. Cənub Qaz Dəhlizi təkcə Avropaya enerji marşrutu deyil, həm də enerji mənbələrinin şaxələndirilməsi layihəsidir.

### NATO faktorunda Azərbaycanın rolu

NATO ilə münasibətlər uğurla inkişaf edir. 2021-ci il dekabr ayında Prezident İlham Əliyev Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşüb. Bu il fevralın 15-də Yens Stoltenberq Prezident İlham Əliyevə zəng edib. Söhbət zamanı Y.Stoltenberq Avropanın etibarlı qaz təchizatçı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib.

Həmçinin, müstəqil, öz milli maraqlarına əsaslanan çoxşaxəli siyasət Azərbaycanın beynəlxalq arenada rolunun və nüfuzunun yüksəlməsini, region ölkələri, dünyanın güc mərkəzləri ilə etibarlı və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa və onu inkişaf etdirməyə imkan verib.

### Azərbaycan Rusiya əlaqələri yüksələn xətlə inkişaf edir

Rusiya ilə ölkəmizin yüksək səviyyəli əlaqələri var. İki ölkə prezidentləri arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq münasibəti formalaşıb.

Rusiya Azərbaycanın qonşusu, dünyanın ən güclü ölkələrindən və BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir. Ölkələrimiz arasında tarixən dərin mədəni, humanitar, iqtisadi əlaqələr mövcuddur. Əbəs deyil ki, Rusiyada milyonlarla azərbaycanlı yaşayır, işləyir.

Digər tərəfdən, Vətən müharibəsində əldə etdiyimiz zəfərdən sonra Cənubi Qafqazda yeni bir regional nizam, konfiqurasiya formalaşır. Bu yeni konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Bu mənada, hər iki ölkə ilə müttəfiqlik bəyannamələrinin imzalanması bu yeni konfiqurasiyanı rəsmən təsbit edir.

Söz yox ki, qazandığımız hərbi zəfərin siyasi-diplomatik cəbhədə daha da möhkəmləndirilməsi, Azərbaycanın regionda yaratdığı yeni reallığın tam olaraq qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Hər iki bəyannamə bu məqsədə xidmət edir. Habelə sürətlə dəyişən, təhdidlərin dünyadan artdığı bir dünyada bütün güc mərkəzləri ilə münasibətləri ən yüksək səviyyəyə çatdırmaq ölkəmizin milli təhlükəsizliyinin qorunmasını təmin edir.

Bütün bunlardan nəticə çıxara bilərik ki,Azərbaycan digər tərəfdaşlarla da münasibətləri daha da inkişaf etdirmək üçün səylərini davam etdirəcək.

### Moskva Bəyannaməsi - yeni müttəfiqlik erasına doğru!

Artıq deyə bilərik ki, Moskva Bəyannaməsi ilə Azərbaycan və Rusiya arasında münasibətlər keyfiyyətcə yeni müttəfiqlik səviyyəsinə yüksəlir.

Bəyannamədə BMT Nizamnaməsinə, Helsinki Yekun aktına, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə riayət olunmasının vacibliyi vurğulanır. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında BMT-nin aparıcı rolu xüsusilə qabardılır.

Eyni zamanda, Moskva Bəyannaməsinin ana qayəsi ondan ibarətdir ki, hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı fayda, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulmasına dair öhdəlik götürürlər. Bəyannamədə xüsusi olaraq vurğulanır ki, hər iki ölkə müstəqil xarici siyasət yürüdür.

### Bəyannamədən mühüm çıxarışlar bunlardır

Hər iki ölkə müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinməyə dair öhdəlik götürürlər;

Hər iki ölkə öz ərazisində hər hansı bir təşkilat və şəxslərin digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını alacaqlar;

Bəyannamədə keçmiş münaqişəyə son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın, eləcə də 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların müddəalarının həyata keçirilməsinin vacibliyi vurğulanır;

Bəyannamədə Qafqaz regionu və Xəzərdə sabitliyin və təhlükəsizliyin təmin edilməsində qarşılıqlı fəaliyyətin zəruriliyi qeyd olunur və bu xüsusda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada nəzərdə tutulmuş bütün fəaliyyət prinsiplərinin vacibliyi təsdiq edilir;

Bəyannamədə beynəlxalq terrorçuluq, ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq və digər bu tipli təhdidlərin qarşısının alınması üçün səylərin birləşdirilməsi qeyd olunur;

Beləliklə, mühüm məqamlardan biri də iki ölkə arasında qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığın dərinləşdirilməsi və onların keyfiyyətcə yeni səviyyəyə qaldırılması öhdəliyidir. Bu xüsusda, hər iki tərəf bir-birinin maraqlarına zərər vuran istənilən iqtisadi fəaliyyətin həyata keçirilməsindən çəkinmək öhdəliyi götürürlər.

Azərbaycan Prezidentinin Rusiyaya səfəri və iki ölkə arasında bəyannamənin imzalanmasına dair digər xüsusi məqamlar ondan ibarətdir ki, Prezident İlham Əliyevin Rusiyaya səfəri uzun müddətdir planlaşdırılırdı. Müttəfiqlik sənədinin hazırlanması və tərəflər arasında razılaşdırılması uzun sürən prosesdir. Belə ki, Prezident İlham Əliyev Yeni il ilə əlaqədar xalqa müraciətində Rusiya ilə əlaqələrin keyfiyyətcə yeni səviyyəyə qalxacağının anonsunu vermişdi. Bu baxımdan Bəyannamənin imzalanması yeni gündəmə çıxan məsələ deyil. Məsələ regionda gedən son proseslərlə əlaqələndirilə bilməz.

Eləcə də, Bəyannamə tərəflər arasında bərabərhüquqlu münasibətləri yüksək səviyyədə tənzimləyən sənəddir, hər iki tərəfin, o cümlədən də Rusiyanın üzərinə ciddi öhdəliklər qoyur. Bu öhdəlik Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, separatizmə qarşı mübarizə, bir birinin daxili işlərinə qarışmamaq və digər məsələləri əhatə edir.

Fakt budur ki, Azərbaycan Qoşulmama Hərəkatının üzvü və fəaliyyətdə olan sədridir. Azərbaycan çoxşaxəli, öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdür, onun digər ölkələrlə münasibətləri heç vaxt üçüncü tərəfə qarşı yönəlməyib.

Türkiyə ilə imzalanmış Şuşa bəyannaməsi kimi, Rusiya ilə Moskva bəyannaməsi də Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və təhlükəsizliyinə zəmanət verir. Azərbaycan öz müstəqil siyasətinə, təhlükəsizliyinə əlavə zəmanət qazanır.

Beləliklə, bu müqavilə Azərbaycanı daha da gücləndirir. Türkiyə və Rusiya ilə müttəfiq olmaq, yaxın zamanlarda Avropa İttifaqı ilə ikitərəfli sazişin imzalanması perspektivi güc, bacarıq, məharəti diplomatika tələb edir.

### Ermənistana növbəti zərbə!

Azərbaycanla Rusiya arasında müttəfiqlik Ermənistana böyük zərbədir. Artıq Ermənistan müttəfiqlik əlaqələri, üçüncü tərəfin mübahisələrə cəlb edilməsi kimi məsələlərdən sui-istifadə edə bilməyəcək.

Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Ticarət dövriyyəsi 3 milyard dollardan artıqdır. Azərbaycan kənd-təsərrüfatı məhsullarının ixracı üçün Rusiya əsas bazarlardan biridir.

Qeyd etmək yerinə düşərdi ki, bəzi maraqlı şəxslərin, siyasi qrupların bu müqavilənin mahiyyətini təhrif etməsi, onun Azərbaycanın müstəqilliyini məhdudlaşdıran, təhlükəsizliyinə xələl gətirən addım olması ilə bağlı iddiaları tam yanlışdır. Bu kimi iddialar sənədin mahiyyətini dərk etməmək və yaxud qərəzli şəkildə onun haqqında yanlış rəy formalaşdırmaq cəhdinin nəticəsidir.

Bu baxımdan, yaxın gələcəkdə yanlış rəy formalaşdırmağa cəhd edənlər nə qədər böyük səhvə yol verdiklərinin fərqinə varacaqlar.

***Rövşən RƏSULOV***

# Yevgeni Mixaylov:

## “Müttəfiqlik Rusiya və Azərbaycanın mövqelərini möhkəmləndirəcək”



**Bu gün Moskvada Rusiya Prezidenti Vladimir Putinlə Rusiyada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev arasında danışıqlar başlayıb. Danışıqlar iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ərəfəsində keçirilir. Kremlin məlumatına görə, görüşdə siyasi, ticarət-iqtisadi və humanitar sahələrdə ikitərəfli münasibətlərin gələcək inkişafı məsələlərinin bütün spektrinin müzakirəsi olunacaq.**

Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında Dağlıq Qarabağ üzrə 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli sazişlərin, o cümlədən Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına dair tədbirlərə də baxılacaq. Danışıqların yekunu olaraq Rusiya ilə Azərbaycan arasında münasibətləri müttəfiqlik səviyyəsinə çatdıran Müttəfiq Əməkdaşlıq haqqında Bəyannamə imzalanacaq. Rusiya və Azərbaycan münasibətlərinin statusunun artması praktikada nə demək olacaq və bu, regiondakı münasibətlərə necə təsir edəcək?

Millətlərarası münaqişələr üzrə mütəxəssis Yevgeni Mixaylov bu barədə fikirlərini ”Moskva-Baku” platformasına verdiyi şərhində açıqlayıb. Ekspertin şərhini oxucularımıza təqdim edirik.

- Rusiya və Azərbaycan liderləri tərəfindən Müttəfiqlik Əməkdaşlığı Bəyannaməsinin imzalanması gözlənilirdi. Azərbaycan özünü çoxdan Rusiyanın etibarlı tərəfdaşı kimi təsdiqləyib. Ona görə də iki ölkə arasında münasibətlərin müttəfiqlik səviyyəsinə çatması xəbəri mənim üçün təəccüblü deyil. Mən həmişə Rusiya-Azərbaycan münasibətləri haqqında danışarkən güman etmişəm ki, yaxın gələcəkdə münasibətlərin indi baş verən yeni səviyyəsinə çıxmaq mümkün olacaq. Bəli, Rusiya ilə Azərbaycanın müttəfiq olacağı faktı Qərb tərəfdaşları adlandırılan bir çox ölkələr üçün görünməmiş əhəmiyyətə malik, gözlənilməz hadisədir. Aydındır ki, belə bir razılaşma ilə Rusiya Cənubi Qafqazda öz mövqelərini daha da möhkəmləndirəcək. Necə ki, Azərbaycan öz mövqelərini möhkəmləndirəcək. Şübhə yoxdur ki, bütün bu hərəkətlər Azərbaycanla Türkiyə arasında da əlaqələndirilir. Qafqazın cənubunda yeni geosiyasi reallıq qurulur. Bu da Türkiyə ilə yaxınlaşmanı ehtiva edir.

Rusiya ilə Türkiyənin qarşılıqlı əlaqədə ola bilməyəcəyini deyənlərin hamısı yanıldı. Biz yaxşı bilirik ki, Rusiya Federasiyasında ermənipərəst mövqeyi əks etdirən lobbi strukturları var. Bu, hətta özlərini Rusiyanın maraqlarını müdafiə edən bəzi media orqanlarında da özünü göstərir. Amma əslində belə bir məqsəd güdülmür. Onlar həmişə Rusiya və Osmanlı imperiyaları arasındakı tarixi qarşıdurmada parazitlik ediblər. Əslində bizi bilərəkdən Osmanlı imperiyasına qarşı itələdilər. Anqlosaksonlarda həmişə belə bir hiss olub ki, Türkiyə və Rusiya müttəfiq olarsa, bu, Qərb dövlətlərinin istənilən ambisiyalarına müqavimət göstərməyə imkan verəcək güclü qarşılıqlı əlaqə olacaq.

Və bu gün biz başa düşürük ki, Rusiya Qərbə yox, Şərqə baxmalıdır. Qərb bizə həmişə mənfəət nöqteyi-nəzərindən baxıb. Rusiyanın Azərbaycanla müttəfiqliyinə Ermənistanın reaksiyası necə olacaq? Ermənistanın çox seçimi yoxdur. Rusiya tərəfdaşlarını özü seçir. O, Ermənistanı qapı arxasında qoymur və ona kömək edəcək, lakin kimin, nəyin onun üçün daha yaxşı olduğunu Rusiya özü müəyyən edəcək. O, erməni diasporasını dinləməyəcək. Ermənistan Rusiya üçün tarixi müttəfiqdir, Azərbaycan isə Cənubi Qafqazın həm tarixi, həm də bu gün ən mühüm müttəfiqidir, onunla heç bir halda münasibətləri korlanmamalıdır.

Mən tam etiraf edirəm ki, Əliyevlə Putinin Moskvada gözlənilən görüşündə İlham Əliyev bir diplomat kimi Ukrayna ilə Rusiya arasında vəziyyətin həllində vasitəçilik təkliflərini səsləndirəcək. Biz Türkiyə prezidentinin bu məsələdə fəal vasitəçilik cəhdlərinin şahidi olduq. İlham Əliyev yanvarda Kiyevə səfər edib və qayıdandan sonra Rusiya dövlət başçısına zəng edib. Mediada Zelenskinin Əliyevdən vasitəçi olmasını istəməsi barədə məlumatlar yayılıb. Əslində, Zelenskiyə heç nə mane olmur, əgər istək varsa, Qərb tərəfdaşları ilə əlaqələrindən imtina edib, ölkəsinin qan gölünə atıldığını anlayıb, dövlətin gələcəyini düşünsün, telefonu götürüb Putinə zəng edib desin: ”Vladimir Vladimiroviç, mən əməkdaşlığa hazıram”. Amma etmir.

Əliyev və Ərdoğanın birbaşa Zelenski ilə əlaqə saxlamaq imkanı var. Amma qərarı Zelenski deyil, Rusiya Federasiyası ilə sülhə ehtiyacı olmayan Bayden verir. O, siyasi tərəfdarlarının maraqlarından çıxış edir. Həmişə olduğu kimi, Amerika liderləri siyasi məqsədlərinə çatmaq üçün ya müharibə, ya da sülh oynayırlar. Və bütöv xalqların və dövlətlərin taleyini asanlıqla mübadilə edirlər.

Prezidentimiz tərəfdaşlarından, müttəfiqlərindən gələn istənilən dialoqa, təkliflərə hazırdır. Bu gün Ukrayna ətrafında böyük geosiyasi oyun gedir. Biz Vladimir Putinlə İlham Əliyevin çox gözəl münasibətlərini bilirik və etiraf etmək olar ki, prezidentimiz dostunun fikrinə və istəklərinə qulaq asır. Onlar, demək olar ki, həmişə ən narahat məsələlərdə belə, qarşılıqlı anlaşma tapırlar, bunu Qarabağ münaqişəsinin həlli göstərdi.

Ukrayna ətrafında yaranmış vəziyyət, Rusiya-NATO münasibətləri, təhlükəsizlik təminatı problemləri fonunda ümumilikdə postsovet məkanında, xüsusən də Cənubi Qafqazda təhlükəsizlik məsələsi ortaya çıxır. Müharibə başlasa, Ukraynanın özündə yarım milyon Azərbaycan diasporunun yaşadığını başa düşürük. Azərbaycanın Rusiya Federasiyası ilə əla münasibətləri var. Silahlı qarşıdurma isə bir çox birgə layihələrin inkişafına mane olacaq, ən azı diqqəti yayındıracaq, şübhəsiz ki. Burada isə Əliyev oyun oynamağa - ilk növbədə öz dövlətinin təhlükəsizliyini, Azərbaycanın milli maraqlarını gücləndirməyə və siyasi xallarını almağa çalışır. Eyni zamanda, Azərbaycan əvvəlki kimi Ukrayna ətrafında yaranmış vəziyyətlə bağlı bəyanatlarında kifayət qədər dəqiq olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# “Şuşa ili” Azərbaycanın müstəqillik tarixində hər zaman yaddaqalan olacaq

**Hər bir yaşayış məskəninin tarixi mənsubluğu orada yaşayan xalqların mədəniyyət abidələri ilə ölçülür. Şuşa Azərbaycan şəhəridir. Bu qədim şəhərdə ermənilərə xas olan, o xalqın orada yaşamasını ifadə edən heç bir nişanə yoxdur. Məhz azərbaycanlıların əzəli şəhəri olduğuna görə işğaldan əvvəl də Şuşanın harasına baxsan, orada azərbaycanlıların tarixinin, milli mədəniyyətin, musiqisinin həkk olunduğunun şahidi olursan.**

### ŞUŞAYA QAYIDIŞIMIZ MƏDƏNİYYƏTİMİZİN QAYIDIŞINDAN BAŞLANIB




Bəli, Şuşanın Azərbaycan xalqının qan yaddaşında, milli, mənəvi və mədəni düşüncəsində daşlaşmış yeri və bir çox hallarda müqəddəsliyi hər kəsə məlumdur. Buna görə də Şuşanın təsis olunmasının 270 illiyi münasibətilə Prezident İlham Əliyevin 2022-ci ili ”Şuşa ili” elan etməsi xalqımızın böyük sevincinə səbəb oldu.”İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik”,-deyən Prezident İlham Əliyev2022-ci ili ”Şuşa İli” adlandırmaqla bir daha dünyaya bütün dünyaya mesajını verərək bildirir ki, Azərbaycan xalqı Şuşanı xilas etməklə qeyrət təntənəsi nümayiş etdirdi və 28 il əsarətdən qurtardığımız 270 yaşlı Şuşanı daha da inkişaf etdirib gülüstana çevirəcəyik.

Şuşanın qara günü olan 8 mayı təqvimlərdən silən, qeyrət qalamızın yeni ”doğum günü”nü noyabrın 8-də bayram edən xalqıq. Ötən il mayın 7-də Prezident İlham Əliyev ”Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında” sərəncam imzaladı. Mayın 12-13-də bu gözəl şəhər ”Xarıbülbül” musiqi festivalına evsahibliyi etdi. İyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında” Şuşa Bəyannaməsini imzaladılar. Avqust ayında orada ənənəvi Vaqif Poeziya Günləri keçirildi, sentyabrda Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı bərpa olundu. İşğaldan azad edilən torpaqlara il ərzində 32 dəfə səfər edən İlham Əliyev düz 7 dəfə yolunu Şuşadan saldı və Qala-şəhərimizdə böyük quruculuq işlərinə xeyir-dua verdi. Və hər səfərə ”Zəfər” yolu ilə gəldi. Dövlət başçımızın ”Şuşa İli” ilə imzaladığı Sərəncamda deyildiyi kimi: ”Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu”. Bəli, 8 Noyabr - Zəfər Günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Dekabrın 24-də dövlət başçısı, Müzəffər Ali Baş Komandan özünün 60 illik yubileyini də məhz Zəfərimizin qürur zirvəsi olan Şuşada keçirtdi: ”Şuşa hər birimizi özünə çəkir” - dedi. Budur, ”Şuşa İli”nin sevinci, qüruru. Çünki ”Şuşa ili” Azərbaycanın tərcümeyi-halında hər zaman yaddaqalan olacaq.

### 2022-Cİ İL ŞUŞADA BÖYÜK QAYIDIŞIN TƏNTƏNƏSİ

Bu gün Şuşa artıq bərpa və böyük quruculuq dövrünə qədəm qoyub. 2021-ci il 14 yanvar tarixindən - Prezidentin Şuşa səfərindən etibarən Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsi bərpa olundu. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən güllələnən edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı. Məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. ”Qarabağ” və ”Xarıbülbül” otelləri istifadəyə verildi. Şuşanın baş planı təsdiq edildi, yeni yaşayış kompleksinin təməli qoyuldu. Bütün bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar öz doğma yurdlarına qayıdırlar. Bu il Şuşada Böyük Qayıdışın təntənəsi baş tutacaq, uzun müddətlik həsrətdən sonra şuşalılar doğma yurdlarında ”Şuşa İli”ndən irəli gələn əhəmiyyətli tədbirləri izləyəcək, fərəhlənəcək və qürurlanacaqlar.

***RƏFİQƏ KAMALQIZI***

# Möhtəşəm zirvələrə yol açan Yeni Azərbaycan Partiyası

Yeni Azərbaycan Partiyası yarandığı zamandan milli maraqlara əsaslanan fəaliyyət göstərməklə ictimai-siyasi proseslərdə mühüm rol oynamış, qarşısına qoyduğu məqsəd və vəzifələri uğurla yerinə yetirmişdir. "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını proqramında irəli sürən YAP məhz Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin həyata keçirilməsində yaxından iştirak etməklə dövlət müstəqilliyinin dönməzliyinin təmin edilməsinə böyük töhfələr verdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin, şərəfli yol keçdi. 1992-ci il noyabrın 21-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sədrliyi və tanınmış ziyalıların iştirakı ilə Naxçıvan şəhərində YAP-ın təsis konfransının keçirilməsi o zaman yeni müstəqillik qazanmış ölkəmizin bu müstəqilliyi itirmək təhlükəsindən xilas olmasına, ölkəmizin müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə aparan yolun başlanğıcı oldu. Həmin zamandan bu günə kimi Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu YAP ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayır. Hər zaman cəmiyyətdə yeniliyin və müasirliyin tərəfdarı, təşəbbüskarı kimi çıxış edən YAP müasir dövrdə beynəlxalq arenada tanınan və qəbul edilən nüfuzlu partiyalar sırasında böyük nüfuz sahibidir. Sözsüz ki, partiyanın yüksək nüfuzu bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti ilə bağlıdır.

### "BU GÜN YENİ AZƏRBAYCAN PARTİYASI DÜNYA MİQYASINDA ÇOX BÖYÜK VƏ GÜCLÜ PARTİYADIR"

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir və bu, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur. YAP cəmiyyətin öncül siyasi qüvvəsi kimi Azərbaycanın çiçəklənməsi, onun dünya birliyində mövqeyinin möhkəmlənməsi, xalqımızın xoşbəxt və firavan həyat şəraitində yaşaması yolunda böyük qətiyyət və əzmkarlıqla fəaliyyət göstərir. YAP-ın fəaliyyət mexanizminin əsaslarını təşkil edən mühüm prinsiplərdən biri güclü dövlət anlayışıdır. Bu güclü dövlət anlayışı isə həm dövlətin iqtisadi qüdrətinin artırılmasını, həm də vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasını özündə ehtiva edir.

Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasında olmuşdur. Bu gün hər bir sahədə uğurlar qazanılıb və Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. Bu uğurların əldə edilməsində Yeni Azərbaycan Partiyasının rolu danılmazdır. Ölkə başçısı əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu olduğunu çıxışlarının birində belə bildirmişdi: "Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir".

### YENİ AZƏRBAYCAN PARTİYASININ QARŞISINDA YENİ HƏDƏFLƏR VƏ VƏZİFƏLƏR DURUR

Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. YAP-ın VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürmüşdür.

Yeni Azərbaycan Partiyasının VII Qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisəyə çevrildi. Qurultayda partiyanın Sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi YAP üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirmiş oldu. Yeni Azərbaycan Partiyası bu vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Partiyanın yeni Nizamnaməsi və Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir. YAP-ın VII Qurultayı partiyanın inkişaf tarixinin mahiyyət etibarilə yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Prezident İlham Əliyevin islahatlar kursuna uyğun olaraq Yeni Azərbaycan Partiyasının fəaliyyətinin məhz müasir çağırışlara uyğunlaşdırır. Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar və s. partiyanın proqramında öz əksini tapmışdır. Yeni proqramda ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən, cəmiyyətin ahəngdar inkişafını təmin edən ideoloji prinsiplər qorunub saxlanılmışdır.

Bu gün YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Xalqın partiyaya inamı, məhəbbəti yüksəlir və vətənini, xalqını sevən hər kəs Cənab İlham Əliyevin ətrafında sıx birləşir. Ölkə ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bütün sahələrdə olduğu kimi, sosial-siyasi sahədə də aparılan islahatların şahididir. Fevralın 19-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında ölkədə aparılan islahatların effektivliyinin təmin olunmasında YAP-ın üzərinə düşən vəzifələrin təhlilinə həsr olunmuş müşavirədə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında bildirdiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz sosial-iqtisadi sahədə böyük nailiyyətlər qazanmış, beynəlxalq müstəvidə nüfuzunu əhəmiyyətli dərəcədə artırmış, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmiz yeni bir tarixi mərhələyə qədəm qoymuşdur. Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müzəffər Ali Baş Komandan və parlaq diplomat kimi bütün keyfiyyətlərini bariz şəkildə nümayiş etdirmişdir.

### İSTEDADLI, CƏMİYYƏTƏ VƏ DÖVLƏTƏ XİDMƏT ETMƏK İSTƏYƏN GƏNCLƏR PARTİYANIN ƏTRAFINDA BİRLƏŞİB

Təbii ki, bu gün YAP-ın sıralarında gənclərin böyük üstünlük təşkil etməsi və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyətinin də gənclərdən ibarət olması təsadüfi deyildi. YAP hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. YAP Gənclər Birliyi də istedadlı, cəmiyyətə və dövlətə xidmət etmək istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür.YAP gəncləri ölkəmizn inkişafı prosesinə öz töhfələrini fəal şəkildə verirlər. YAP-ın gəncləri bundan sonra da Ulu Öndər Heydər Əliyev irsinin dərindən öyrənilməsi və təbliği, Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin fəal təbliğatı, milli mənəvi dəyərlərin qorunması və s. sahələrdə fəallığını gücləndirməlidir. Partiyanın rəhbər tutduğu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında Azərbaycan gəncləri arasında vətənə sevgi, ölkə sərhədlərindən kənarda Azərbaycanı layiqincə təmsil etmək, milli-mənəvi dəyərlərimizi qorumaq təbliğ olunur.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etdikdikdən sonra bu gün ölkəmizin qarşısında yeni yollar açılıb. Bu zəfərdən sonra gənclər üzərində də mühüm vəzifələr dayanır. Yeni Azərbaycan Partiyasının gəncləri də öz növbəsində töhfələrini verəcəklər.

Ulu Öndərin siyasi kursunu Prezident İlham Əliyevin yaradıcı şəkildə, uğurla davam etdirməsi, onu yeniliklərlə zənginləşdirməsi ölkəmizin tərəqqisini və yüksək sosial rifah şəraitində yaşamasını təmin edir. Bütün bunların nəticəsində Azərbaycan dünyada davamlı inkişaf edən, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verən dövlət kimi tanınır. Azərbaycan xalqının maraqlarına cavab verən və mütərəqqi xarakter daşıyan müasir dəyərlərdən bəhrələnmək YAP-ın fəaliyyətinin əsaslarından biridir.

YAP möhtəşəm zirvələrə yol açan, "dünənin, bu günün və sabahın partiyasıdır". YAP-ın yeni proqramı müasir dövrün çağırışlarını və ölkəmizin davamlı inkişafını nəzərə almaqla özündə mütərəqqi dəyər və meyarlar, prinsiplər, hədəflər və vəzifələri birləşdirir. Onların qorunması və yerinə yetirilməsi Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi tərəqqisinə böyük təkan verəcək, onun dünya birliyində mövqeyini daha da möhkəmləndirəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# "Azərbaycan və Aİ arasında çox sıx əməkdaşlıq var"

"Azərbaycan və Avropa İttifaqı arasında çox sıx əməkdaşlıq var. Avropa İttifaqına üzv olan 27 ölkənin 9-u Azərbaycanla birbaşa strateji tərəfdaşlıq haqqında saziş imzalamışdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov bildirib.



Onun sözlərinə görə, ümumilikdə Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər əlbəttə ki, enerji daşıyıcıları üzərindən qurulmuşdur: "Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyini şaxələndirən ölkələrdən biridir və son dövrlərdə xüsusən də enerji sahəsində dünyada qlobal böhran yaşandığı bir dövrdə, eləcə də enerji daşıyıcılarının qiymətinin artdığı bir dövrdə Avropa İttifaqı Azərbaycanla əməkdaşlıq etməyə daha maraqlıdır. Çünki Azərbaycan daim verdiyi sözlərin arxasında durur və verdiyi sözlərə əməl edir. Bu baxımdan da Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin enerji sahəsində daha da şaxələndirilməsi, genişləndirilməsi üzərində işlər görülür. Eyni zamanda da digər sahələr üzrə də Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər və əməkdaşlığın qurulması istiqamətində çox vacib addımlar atılır. Digər sahələr üzrə əməkdaşlıqların qurulması ilə bağlı görüşlər aparılır. Avropa İttifaqı da Azərbaycanla yeni əməkdaşlıq platformalarının qurulmasında maraqlı tərəf kimi çıxış edir".

***Abutel İlhamqızı***

# "Dünyanın 20-dən çox ölkəsində Xocalı soyqırımı tanınıb"




"1992-ci ildə fevral ayının 25-dən 26-sına keçən gecə Ermənistan dövləti özünün havadarları ilə birlikdə Xocalıda soyqırım törətdilər. Bu soyqırımın şahidlərindən biri də mənəm. Xocalı soyqırımı gözümüzün qarşısında baş vermiş böyük bir müsibətdir". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Məmmədov deyib. Onun sözlərinə görə, Xocalı soyqırımında 613 dinc əhalimiz şəhid oldu: "Ermənilər burada hərbiçilərimizə qarşı yox, mülki insanlara qarşı soyqırım törətdilər. Çox təəssüflər olsun ki, Xocalı soyqırımının təşkilatçıları, törədiciləri kim idisə, onlar bu günə qədər cəzalarını almayıblar. Doğrudur, Azərbaycan 44 günlük Vətən müharibəsində şəhidlərimizin qisasını aldı. Ancaq soyqırımı təşkil edənlər, soyqırımının törədilməsinə rəhbərlik edənlər bu gün cəzasız qalıblar. Biz onların cəzalanmalarını gözləyirik".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Xocalı soyqırımının tanıdılması istiqamətində Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə, eləcə də cənab Prezident İlham Əliyevin hakimiyyətlik dövründə dünya miqyasında çox böyük işlər görülüb: "Dünyanın 20-dən çox ölkəsində Xocalı soyqırımı tanınıb. Bizim məqsədimiz erməni vəhşiliyini bütün dünyaya çatdırmaq, onların iç üzünü göstərmək, azərbaycanlılara qarşı cinayət, soyqırım törədənləri ifşa etmək və cəzalarına çatdırmaqdır".

***Arzu Qurbanzadə***

# Xocalı soyqırımına cəmiyyətin baxışı

**Azərbaycan xalqının başı çox bəlalar çəkmişdir. Mənfur qonşuları tərəfindən hər zaman müsibətlər yaşamışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etmiş, əliyalın insanlara qarşı soyqırımı törətmişlər. Yüzlərlə günahsız azərbaycanlının qanına girmişlər. Qoca, qadın, uşaq demədən amansızca işgəncələr verərək onları qətlə yetirmişlər.**

Cənab Prezident İlham Əliyev Xocalı soyqırımının 30 illiyi ilə bağlı sərəncam imzalamışdır. Bu sərəncam Xocalı soyqırımını dünyaya tanıtmaq, onu tarixə həkk etmək üçün mühüm əhəmiyyət kəsb edir. Bəs görəsən 30 il əvvəl erməni terrorçularının törətdiyi Xocalı faciəsi haqqında şəhər sakinlərinin təəssüratları nədir? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik.




**Şəhər sakini Rəhilə Xəlilova:** "Xocalı faciəsi hər bir azərbaycanlı kimi mənim üçün də ən dəhşətli gündür. Mən bu faciəni heç vaxt unuda bilmərəm. Xocalı faciəsi zamanı mənim qardaşım ağır döyüşlərdə olmuşdur. Günahsız millə-



timizə qarşı dəhşətli faciə törətmişlər. Biz xalq olaraq bunu unutmamalıyıq. Onlar çox xəyanətkar bir millətdir".

**Şəhər sakini Ülviyyə İmanova:** "Xocalı faciəsində çəkilən kadrlar bütün dünyaya göstərilməlidir. Bu faciə nə dövlətimiz, nə



də dünya tərəfindən yaddan çıxarılmamalıdır. Bu barədə bizim bir çox filmlər çəkilib, kitablar yazılıb. Ermənilər hər zaman bizi günahkar qismində təqdim ediblər. Buna görə də, biz bunun həqiqət olmadığını və əsl faktları bütün dünya birliklərinə göstərməliyik. Çünki bu bizim qan yaddaşımızdır, tariximizdir".

**Şəhər sakini Banu Abdiyeva:** "Xocalı



faciəsi bizim tariximizdə 20 Yanvar qətliamı kimi qanla yazılan ən böyük fəlakətdir. Heç vaxt bu hadisəni unutmaq olmaz. Bir Azərbaycanlı kimi onlara nifrət edirəm. Hətta deyərdim ki, harda erməni görsəm boğub öldürə bilərəm. Çünki onlar bizim millətimizi çox böyük amansızlıqla qətlə yetiriblər. Onlar cinayətkar, xəyanətkar və qəddar bir millətdir".

**Şəhər sakini Sulduz Rəhimov:** "Xocalı faciəsi elə bir dəhşətli faciə və hadisədir ki, ömür boyu bunu unutmaq olmaz. İndiyə kimi o vandalların bizim millətimizə etdiklərini



unuda bilmirəm və unutmayacağam. Bildiyiniz kimi bəzi fikirlər dolaşır ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəcəklər. Mən deyərdim ki, onlar elə alçaqdırlar ki, bizim torpağımıza yenidən qayıtsalar, illər keçsə belə onlar yenə Xocalı faciəsi kimi terror əməllər törədəcəklər".

SORĞU

**Şəhər sakini Hüsniyyə Rəhimova:** " Mən bu hadisələrlə barışa bilmirəm. Bir şəhərin yox olması, orada qətliam törədilməsi ağlasığmazdır. Bütün dünya bu vəhşiliyi tanımalıdır. Azərbaycan xalqı da bunu unutmamalıdır. Bu bir cəmiyyətin bilə-bilə kökü-



nün yox edilməsi üçün təxribatdır".

**Şəhər sakini Gülnaz Əliyeva:** "Azərbaycan xalqının başına gələn ən amansız qətliamlardan biridir. Qəddar düşmən uşa-



ğa, qocaya baxmadan, aman diləyənə rəhm etmədən hər kəsi qətlə yetirmişlər".

**Şəhər sakini Kamran Haydayev:** "Günahsız körpələri, hamilə qadınları, qoca qadınları, qoca kişiləri vəhşicəsinə qətlə yetirən şəxslərə insan demək olmaz. Onlar qaniçən canidirlər. Xocalı soyqırımı bizim yaralı yerimizdir. Allah xalqımızı var eləsin. Allah bir də bizim xalqımıza bu cür acılar ya-



şatmasın".

**Şəhər sakini İlahə Musayeva:** "Xocalı faciə bütün xalqımızın travmasıdır. Biz bu hadisələri bütün dünyaya hər zaman çatdırmalı və aktual saxlamalıyıq. Çünki hamı bilməlidir ki, onlar necə vəhşi, amansız və mundar bir canidirlər. Onlar bizim insanlarımızın başına min bir bəlalar gətiriblər. Təbii ki, bunları Azərbaycan qanı daşıyan hər bir kəs unutmamalı və unutdurmamalıdır".

***Abutel İlhamqızı***

## "Bu saziş Azərbaycan və İran arasında ticarət dövriyyəsini yaxşılaşdıracaq"



**"Azərbaycan və İran arasında hazırlanmaqda olunan və ticarətin asanlaşdırılmasını nəzərdə tutan preferensial ticarət sazişinə 52 növ məhsulun adı daxil edilib". SİA-nın məlumatına görə, bunu Azərbaycanın İrandakı səfiri Əli Əlizadə İranın Qərbi Azərbaycan vilayətinin valisi Məhəmməd Sadiq Mötəmedianla görüşdə deyib.**

Ə.Əlizadənin sözlərinə görə, bu məhsullar iki ölkədə istehsal olunur və qarşılıqlı şəkildə idxal-ixrac edilir: "Ümid edilir ki, bu saziş yaxın gələcəkdə Azərbaycan və İran arasında ticarət dövriyyəsinin yaxşılaşmasına səbəb olacaq", - deyə o qeyd edib.

Səfir bildirib ki, Azərbaycanın azad olunmuş ərazilərinin bərpası İranla, xüsusilə də Qərbi Azərbaycan vilayəti ilə əməkdaşlıqların inkişaf etdirilməsinə şərait yaradır. "Azərbaycan müxtəlif planların icra olunması üçün digər ölkələrin investorlarının imkanlarından istifadə etmək niyyətindədir. Azad edilmiş ərazilərə investorların cəlb olunması məqsədilə11 martda Azərbaycanda birgə hökumətlərarası komissiyanın iclası keçiriləcək. Qərbi Azərbaycan vilayəti investorlarının da bu iclasa qatılacağı gözlənilir", - deyə Ə.Əlizadə bildirib.

# Yol-nəqliyyat hadisələrinin səbəbləri nələrdir?

ARAŞDIRMA



**Müasir texnologiya səviyyəsində nəqliyyat vasitələri həyatımızın ayrılmaz hissəsinə çevrilib. Həyatın sürətli axınında vaxta qənaət etməyimizə kömək edən bu alətlər bir çox cəhətdən istifadə olunur. Gün ərzində taksi, şəxsi nəqliyyat, avtobus, gəmi, metro və bir çox başqa nəqliyyat vasitələrindən istifadə olunur. Bu nəqliyyat üsullarından istifadə edərkən qəzalar baş verə bilər. Son zamanlar isə bu qəzalar geniş vüsət alıb. Yol-nəqliyyat hadisələrinin səbəbləri və nəticələri nələrdir?**

Avtomobilin tarixinə nəzər saldıqda, avtomobil latın və yunan sözlərindən ibarət



olub, özü yeriyən deməkdir. Avtomobil barədə ilk fikir XV əsrdə yaşamış Leonardo da Vinçi və XVII yüzilliyin dahisi İsaak Nyuton tərəfindən irəli sürülmüşdür.

İki böyük alimin bu sahədə davamçısı sayılan fransız Nikolas Cozef 1769-cu ildə buxarla işləyən ilk avtomobil icad etmişdir Bu icaddan bəhrələnən Amadey Bolle 1875-ci ildə həmin sistemlə işləyən avtomobillə Parislə Le-Manş arasındakı məsafəni 18 saata qət etdi. Bu texnika aləmində böyük sensasiya idi. Və bu da dünya alimlərinin diqqətini avtomobil sənayesinə yönəltdi. Hələ 1859-ci ildə fransalı mühəndis Etyen Le Nor avtomobillər üçün nəzərdə tutulmuş yeni tipli mühərrik hazırlamışdı və bu hadisədən sonra, onun alman həmkarı Klerk Nikolas həmin mühərriki təkmilləşdirərək (1876), prinsipcə onu bugünkü formaya saldı.

İstər piyada, istər sərnişin, istərsə də sürücü olaq, yol qəzaları bizim və ya başqasının ucbatından baş verə bilər. Müxtəlif səbəblərdən baş verən bu qəzalar insanlara həm maddi, həm də mənəvi ziyan vurur.

## Yol-nəqliyyat hadisələrinin səbəbləri nələrdir?

Yol-nəqliyyat hadisələri bir çox amillərdən qaynaqlanır. Ən ümumi səbəblər bunlardır:

**Sürücü xətası:** Nəqliyyat vasitələri sürücülər vasitəsilə işləyir. Bu funksiyanı həyata keçirmək üçün sürücülər bəzi qaydalara əməl etməlidirlər. Xüsusən də sürücünün diqqətsizliyi, yuxusuzluq, alkoqolizm və sağlamlıq problemləri onların qəza törətmə-



sinə səbəb olur.

**Piyada və ya sərnişin səhvləri:** Bu, çox əhəmiyyətli bir faktordur. Yol-nəqliyyat hadisələri piyadaların diqqətsizliyi və ya qaydalara əməl etməməsi, yaxud sərnişinlərin qaydalara diqqət etməməsi səbəbindən baş verə bilər.

**Avtomobil problemləri:** Yol qəzalarının



ən çox bilinən səbəblərindən biri avtomobilin nasazlığıdır. Mexanik quruluşa malik nəqliyyat vasitələrində yaşanan qüsurlar və ya çatışmazlıqlar yol qəzalarını artıra bilər. Bu səbəbdən sürücülərin nəqliyyat vasitələrinə mütəmadi olaraq texniki qulluq göstərmələri böyük əhəmiyyət kəsb edir.

**Yol və xəbərdarlıq səhvləri:** Hərəkətdə olan nəqliyyat vasitələri üçün xəbərdarlıqlar kifayət qədər və aydın olmalıdır. Xəbərdarlıq səhvləri və ya nöqsanları, yanlış və pozulmuş yol tənzimləmələri qəzalara səbəb ola bilər.

Yol-nəqliyyat hadisələrinin bir çox mənfi nəticələri var. Bunlar maddi və mənəvi ola bilər:

**Ölüm:** Ən arzuolunmaz və kədərli nəticələrdən biridir. Qəzanın şiddətindən və təsir yerindən asılı olaraq insanların tələfatı ilə nəticələnə bilər.

**Maddi itki:** Baş verən yol qəzası kiçik və ya böyük maddi ziyana səbəb ola bilər. Toqquşmanın şiddətindən asılı olaraq, bu zərərlər qəzaya səbəb olan avtomobildə, qəzaya uğramış avtomobildə və ya yerdə ola bilər.

**Psixoloji dağıntılar:** Qəzada maddi və ya can itkisi olmasa da, avtomobilin içərisində və ya xaricində olan şəxslər bu travmadan təsirlənə bilər. Hiss olunan duyğular insandan və yaşanan şokdan asılı olaraq fərqli ola bilər.

SİA son zamanlar sıx-sıx baş verən qəzalarla bağlı araşdırma apararaq sosioloq, psixoloq və nəqliyyat ekspertlərinin fikirlərini öyrənib:

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri, tanınmış QHT sədri Gülayə Səfərova:** "Statistikaya nəzər salsaq görərik ki, ötən illərlə müqayisədə dəhşətli yol qəzaları artmaqda davam edir. Bunlara səbəb isə ötmə və qarşıdan gələn nəqliyyatın yoluna çıxma, nəqliyyat vasitələrinin yüksək sürətlə idarə olunması, yolayrıclarını keçmə qaydalarının kobud şəkildə pozulması, nəqliyyat vasitələrinin spirtli içkilərin, psixotrop maddələrin təsiri altında



idarə edilməsi, piyadaların qadağa olunmuş yerlərdən yolu keçməsi və s. Baş verən bu kimi halların qarşısını almaq üçün təbliğat işini gücləndirmək, cərimələrin miqdarını artırmaq, qəza nəticəsində baş verən cinayətlərin törədilməsinə görə tətbiq edilən cəza növlərini ağırlaşdırmaq lazımdır. Sürücü, piyada, sərnişin məsuliyyəti artırılmalıdır. Piyadalar da, sürücülər də diqqətli olmalı, yol hərəkəti qaydalarına riayət etməlidirlər ki, sağlamlıqlarından, həyatlarından olmasınlar".

**Psixoloq Fidan Nizamova:** "Yol qəzaları müxtəlif səbəblərdən olur. İnsanların idarə edə biləcəyi tərəf həm piyadaların yo-



lu daha diqqətli, daha məsuliyyətli keçməsi, həmçinin də sürücülərin də eyni qaydada diqqətli, məsuliyyətli olması vacibdir. Burada insanın özündən asılı olan faktorlardan danışacağıq. Çox təəssüf ki, bəzən insanlar yolu, yol keçməyi, maşın sürməyi özünü ifadə etməklə səhv salırlar. Çünki insanlarda sürətli avtomobil idarəsi, yersiz manevrlər etmək bir növ özünü təsdiqləmək, özünü cəsarətli, gözəl bir şəkildə göstərmək arzusu olur.

Həmçinin, içkili sükan arxasına oturmağı özünə böyük bir qeyri-adi addım kimi görür. Yəni, bir qürur duyulası bir addım kimi görənlər var. Burada yaş kateqoriyası yoxdur. Bu gənclər arasında da, yaşca böyük insanlar arasında da var. Təəssüf ki, bunları idarə etməkdən başlamalıyıq ki, avtomobil idarə etmək özünü ifadə etmək üçün deyil. Bu, bir yol hərəkət vasitəsidir.

Yol keçmək üçün, piyada üçün qaydalar



var. Ona ciddi riayət etmək lazımdır. Anlamaq lazımdır ki, bugün yol keçərkən və yaxud da avtomobil idarə edərkən özümüzə icazə verdiyimiz hər artıq addım, qaydalara zidd olan addım faciəvi sonla bitə bilər. Öncə bunun məsuliyyətini anlamaq lazımdır".

**Nəqliyyat üzrə ekspert Elməddin Muradlı:** "Yol nəqliyyat hadisələrinin artması bizi çox narahat edir. Xüsusən də, tez-tez ağır yol-nəqliyyat hadisələri baş verir. Bu qəzalarda ölən və xəsarət alanların sayı da kifayət qədərdir. Bu hadisələrin müxtəlif başvermə səbəbləri var. Onların arasında çox təəssüflər olsun ki, yol şəraitinin normal vəziyyətdə olmaması amili də var. Yolların işıqlandırılması, işıqlanma xətlərinin düzgün quraşdırılması kimi halları aidiyyatı qurumlar mütləq nəzərə almalıdırlar. Çünki yol nəqliyyat hadisələrinin təhlili göstərir ki, çox ciddi problemlər var və bu problemləri aradan qaldırmaq lazımdır.

Təbii ki, piyada və sürücülər də diqqətli olmalıdırlar. Bu istiqamətdə də təbliğat işlərinə böyük gərək var. Nəzarət mexanizmi də güclü olmalıdır. Cəzalar həllini tapmalıdır. Heçkim başa düşməsin ki, o toxunulmazdır və ona qarşı cəza tədbirləri görülməyəcək.

Çox təəssüflər olsun ki, bizim sürücülərin əksəriyyəti bu psixologiyada formalaşıb ki, kamera, polis, radar yoxdursa istədiyi formada maşın sürə bilər. Nəzərə almaq lazımdır ki, burada insan həyatından söhbət gedir".

***Ayşən Vəli***

# Bəşər tarixində vəhşilik aktı:

# Xocalı soyqırımı



**Azərbaycan Prezidenti İlham Əliyev Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı imzaladığı Sərəncamda deyilir ki, Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.**

Sərəncamda, həmçinin bildirilir ki, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı. Diqqətə çatdırılır ki, Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı. Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi: "Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir. Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar. Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq".

## AZƏRBAYCAN XALQI HEÇ BİR VAXT XOCALI FACİƏSİNİ UNUTMAYACAQ

Bəli, Xocalı soyqırımından 30 il keçməsinə baxmayaraq Azərbaycan xalqı heç bir vaxt bu faciəni unutmayacaq və unutmayında! Çünki bəşər tarixində görünməmiş dəhşətləri ilə yadda qalan Xatın, Sonqmi, Ruanda kimi soyqırımların təkrarı olan Xocalı faciəsindən 30 il keçsə də, erməni-rus hərbi birləşmələrinin törətdikləri qırğının yaraları sağalmır. Bir gecədə ermənilərin və rus ordusunun 366-cı motoatıcı diviziyasının başıpozuq əsgərlərinin iştirakı ilə dağıdılan, yandırılan, silahsız, günahsız əhalisi qətlə yetirilən Xocalıda əsl soyqırımı törədildi. Həmin gecə bütöv bir şəhər yerlə yeksan edildi. 613 nəfər dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürüldü. 487 sakin əlil oldu, 1257 Xocalı sakini ermənilər tərəfindən əsir alındı, tarixdə misli görünməmiş təhqirlərə, əzab-əziyyətlərə məruz qaldı. Bu hərbi-siyasi cinayət nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıqla və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları və digər bədən əzaları kəsilmişdir. Bütün bunlar ötən əsrin 80-90-cı illərində SSRİ-yə rəhbərlik edən ermənipərəst Mixail Qorbaçovun sovetlər birliyində yenidənqurma və aşkarlıq adı altında həyata keçirdiyi siyasət daşnakların növbəti deportasiya və soyqırımlarını gerçəkləşdirməsi üçün bəhanə oldu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımını XX əsrin ən böyük cinayəti adlandıran Prezident İlham Əliyev bildirmişdir ki, azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır. Prezident İlham Əliyev həmçinin onu da demişdir ki, Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir. Yeri gəlmişkən, qeyd edək ki, bunun bariz nümunələri özünü 2016-cı ilin Aprel döyüşlərində və ötən ilin Vətən müharibəsində göstərdi.

# XOCALI SOYQIRIMINA ƏSL SİYASİ-HÜQUQİ QİYMƏTİN ULU ÖNDƏR HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN VERİLMƏSİ









Təəssüflər olsun ki, faciənin səbəbkarlarının siyahısı təkcə ermənilərlə məhdudlaşmır. Günahkarlar siyahısında sapı özümüzdən olan baltaların adları da yer alır ki, bunu xalq heç vaxt onlara bağışlamayacaq. Xocalı faciəsi üzərində hakimiyyətə yiyələnən AXC-Müsavat iqtidarı dövründə soyqırımı barədə danışılsa da, son nəticədə faciənin günahkarlarının adlarının üstündən sükutla keçdilər. Soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmədi. Çünki hakimiyyətdə olan "bəylərin" də bu soyqırımında rolu ermənilərin, 366-cı motoatıcı alayın və ya Ayaz Mütəllibovun rolundan heç də az deyildi. 2002-ci ildə faciənin onuncu ildönümü ilə əlaqədar ulu öndər Heydər Əliyev xalqa müraciətində deyirdi: "Bütün bu qanlı hadisələrin qarşısının alınmamasında, o cümlədən Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o, zamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalif qüvvələri də məsuliyyət daşıyırlar".

Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra aldı. Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisində Xocalı soyqırımına siyasi-hüquqi qiymət verildi. 25 fevral 2002-ci ildə Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində Ümummilli Lider Heydər Əliyev bu amansız soyqırımını belə səciyyələndirmişdir: "Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir".

Artıq bu gün Prezident İlham Əliyevin səyi, Azərbaycanın artan nüfuzu, uğurlu diplomatiyası sayəsində dünya ictimaiyyəti başa düşür ki, Ermənistanın idarə olunan siyasətinin əsasında terrorçuluq və işğalçılıq siyasəti dayanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan ideoloji təbliğatın əsas prioritetləri Dağlıq Qarabağ haqqında həqiqətləri, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaqdır. Elə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış, bütün dünya birliyi tərəfindən dəstəklənən "Xocalıya ədalət" kampaniyasını genişləndirməkdə də məqsəd ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı barədə həqiqətləri beynəlxalq aləmdə yaymaqdır.

Belə ki, Leyla xanım Əliyeva tərəfindən hələ 2008-ci il may ayının 8-də irəli sürülən "Xocalıya ədalət" beynəlxalq kampaniyası genosid haqqında həqiqətlərin dünyada yayılmasında aparıcı rol oynayır. İƏT ölkələri ilə yanaşı, Avropa məkanında, ABŞ-da, MDB məkanında və digər ölkələrdə bu deviz altında keçirilən tədbirlər məkandan, zamandan asılı olmayaraq hər bir kəsin Qarabağ münaqişəsi və Xocalı soyqırımı haqqında həqiqətlərdən xəbərdar olmasına şərait yaradır.

Qeyd edək ki, ölkəmizin Xocalı soyqırımının beynəlxalq miqyasda tanınması ilə bağlı gördüyü işlər öz nəticələrini verməkdədir. Belə ki, artıq beynəlxalq ictimaiyyət Azərbaycan xalqının başına gətirilən bü faciəyə münasibətini ortaya qoyur, Xocalı soyqırımını rəsmən tanıyır. Bu və digər faktlar isə beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətlərinə verdiyi qiymətin göstəricisidir. Müxtəlif dövlət və ştatların Xocalı soyqırımını tarixi gerçəklik kimi tanıması Azərbaycanın dövlət və ictimai qurumlar səviyyəsində illərlə bu istiqamətdə apardığı davamlı fəaliyyətin nəticəsidir. Bu, o deməkdir ki, artıq beynəlxalq ictimaiyyət ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı və digər vəhşiliklərlə bağlı daha yaxşı məlumatlanıb. Beynəlxalq ictimaiyyətin həqiqəti bilməsi isə tarixi təhrif edən yalan məlumatların sürətlə yayılmasının və möhkəmlənməsinin qarşısını alır. Artıq erməni yalanları dünya miqyasında ifşa olunmaqda, beynəlxalq aləm Azərbaycan həqiqətlərini görüb etiraf etməkdədir. Son illərdə bir sıra sülhsever dünya dövlətlərinin parlamentləri və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Xocalı soyqırımı insanlığa qarşı cinayət kimi qiymətləndirilmiş və tanınmışdır. "Xocalıya ədalət" kampaniyasının fəaliyyəti deməyə əsas verir ki, bu sahədəki fəaliyyətimiz öz haqlı sonluğuna qədər davam edəcəkdir.

Prezident İlham Əliyev müraciətlərindən birində demişdir: "Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır". Dövlət başçısının təşəbbüsü ilə Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Ali Baş Komandanımızın rəhbərliyi ilə İqtidar-Xalq həmrəyliyi nəticəsində 30 il düşmən əsarətində olan torpaqlarımız 44 gün davam edən müharibədə Qalib oldu.

Ərazi bütövlüyümüz bərpa olundu, haqq-ədalət qalib gəldi, bir daha göstərdi ki, bütün şəhidlərimizin, Xocalı soyqırımı şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Bəli, bu gün Prezident İlham Əliyevin bu qətiyyəti, diplomatik bacarığı ilə tezliklə Xocalı qətliamına dünya səviyyəsində hüquqi qiymət alacaq. Gec və ya tez hər bir qatil və quldur erməni Azərbaycan xalqına qarşı törətdiyi bütün cinayətlərə görə, o cümlədən Xocalı soyqırımına görə öz layiqli cəzasını alacaq. Dövlət başçımızın dediyi kimi: "Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar".

**RƏFİQƏ HÜSEYNOVA**

# Azərbaycanda yol terroru:

## MÜQƏSSİR KİMDİR?

**Nəqliyyat insanların, yüklərin, siqnalların və informasiyaların bir yerdən başqa bir yerə daşınması, ictimai maddi istehsalın ən mühüm sahələrindən biridir. Müasir nəqliyyat sisteminə ümumi istifadəli dəmiryol nəqliyyatı, avtomobil nəqliyyatı, dəniz nəqliyyatı, çay nəqliyyatı, hava nəqliyyatı daxildir.**

Daşınma işini yerinə yetirmək üçün texniki avadanlıqlar olan nəqliyyat vasitələrindən istifadə edilir. Lakin bildiyiniz kimi son dövrlərdə nəqliyyatda yaranan tıxaclar və ölüm halları getdikcə çoxalır. Bəs buna səbəb olan amillər hansılardır? Hansı proses bu kimi halların yaşanmasına səbəb olur? Cəmiyyətimizə belə hadisələr necə təsir edir? Bütün bu suallara cavab tapmaq məqsədilə SİA-a şəhər sakinləri arasında sorğu keçirdi. Gəlin görək şəhər sakinləri hansı təəssüratları bildirəcək.



**Şəhər sakini Novruz Əliyev:** "Fikrimcə,



paytaxt yollarında baş verən tıxacların və qəzaların əsas səbəbi pulla sürücülük vəsiqəsi alan insanlardır. Buna görə də düşünürəm ki, sürücülük vəsiqəsi verilərkən qurum rəhbərləri daha diqqətli olmalıdırlar. Çünki bugünkü gündə qəzalar törədənlərin ən çoxu məhz elə insanlardır. Hər sürücülük vəsiqəsi olan özünü sürücü hesab edir".

**Şəhər sakini Namiq Məmmədli:** "Keçən il Respublikamıza 95 min yeni avtomo-



bil gətirilmişdir. Bu avtomobillərin 70 faizi yaqin ki, bizim sevimli paytaxtımızdadır. Belə olduğu təqdirdə Azərbaycanın nəqliyyatını tənzimləmək çətin olur. Amma bacardığımız qədər tıxacların qarşısını almağa çalışmalıyıq. Ən azından yol hərəkəti qaydaları ilə bağlı tədbirlər görülsə və cəmiyyət maarifləndirilsə çox yaxşı olar".

**Şəhər sakini Rövşən Abdullayev:** "Mənim özüm "Wolt"da işləyirəm. Yəni sifarişli qidaların çatdırılması ilə məşğulam. Bir sürücü kimi onu deyə bilərəm ki, bizim moto-



sikletləri yerləşdirmək üçün ərazi verilmir. Ona görə də Sahil bağının içərisində saxlayırıq. Bu da birçox insanın narazıçılığına səbəb olur. Bunun üçün bir vətəndaş kimi tələb edirəm ki, bizim kimi sürücülər üçün parkinq sistemi yaradılsın".

**Şəhər sakini Paşa Vəliyev:** "Nəqliyyatımızda bir yox, bir çox problemlər var. İlk növbədə problem odur ki, yollarda maşın



çoxdur. İndiki dövrdə bir evdən 4 maşın çıxır. Bununla yanaşı ticarət mərkəzlərinin şəhər mərkəzində olması, məktəblərin və universitetlərin paytaxtda çoxluq təşkil etməsi də və s. bunların hamısı tıxaclara səbəb olur".

**Şəhər sakini Rəmziyə Xudaverdiyeva:** "Mənim maşınım olmasa da, bir piyada kimi yollarda bir çox problemlərlə rastlaşıram. Avtobuslarda



sıxlıq demək olar ki, günü-gündən artır. Bunun da əsas səbəbi sürücülərin yol hərəkəti qaydalarını bilməməsi və sürücü mədəniyyətsizliyindən irəli gəlir".

**Şəhər sakini İlham Quliyev:** "Mənim fikrimə görə, nəqliyyatla bağlı problemləri



aradan qaldırmaq üçün çoxlu sayda cərimələr tətbiq olunmalıdır. Bu cərimələrə də hamı eyni cür riaət etməlidir. Əks təqdirdə bu problemlər aradan qalxmayacaq".

**Şəhər sakini Mehdi Qocayev:** "Tıxaca və qəzalara səbəb olan ən birinci amil "Uber" və ya "Bolt" sürücüləridir. Bildiyiniz üzrə bu kimi sürücülər nəinki yolda eyni zamanda müştərini apararkən də bir çox hadisələr törədirlər. Ona



görə belə sürücülərin qarşısı alınmalıdır. Onları yola buraxmamışdan qabaq müəyyən reydlərdən keçirməlidirlər. Çünki bu şəxslər harada istəyirlər ordada avtomobillərini saxlayırlar".

***Banuçiçək Hüseynli***

# Azərbaycanda antiinflyasiya tədbirləri necə aparılır?

**"2021-ci ilin yekunları göstərib ki, qlobal iqtisadiyyat üçün ən ciddi problemlərdən biri istehlak bazarında qiymət artımlarıdır. Dünya bazarında qiymətlərin artması Azərbaycan istehlak bazarına öz təsirini göstərib. Biz xüsusilə idxal edilən məhsulların qiymətində artımları müşahidə etdik". Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bu təbii ki, yerli istehsal edilən məhsullara da təsir etdi: "Bu baxımdan antiinflyasiya tədbirləri 2022-ci il və daha sonrakı illərdə əsas prioritetlər sırasındadır. Nazirlər Kabineti tərəfindən də bununla bağlı xüsusi tədbirlər proqramı təsdiq olunub".**



Deputat sözlərinə belə davam edib: "Yerli istehsalla məşğul olan sahibkarlara dövlət dəstəyinin genişləndirilməsi, o cümlədən, aqrar sektorda subsidiya mexanizminə baxılması və subsidiya məbləğlərinin artırılmasına ehtiyac var. Subsidiya üçün baza məbləğ bir neçə ildir ki, 200 manatdır. Subsidiyaların fermerlərin xərclərinin müəyyən səviyyədə ödəməsi üçün həmin məbləğin baxılıb artırılmasına ehtiyac var.

Eyni zamanda, bölgələrdə istehsal edilən məhsulların fermerlər tərəfindən paytaxt bazarlarına çıxışının təmin edilməsi, bu istiqamətdə yerli icra hakimiyyəti orqanları və uyğun dövlət qurumu tərəfindən xərclərin bir hissəsinin qarşılanması məqsədəuyğun olardı. Mütəmadi kənd təsərrüfatı yarmarkalarının keçirilməsi və həmin yarmarkalarda fermerlərin öz məhsullarını satmasının təşkil edilməsinə ehtiyac var. Belə yarmarkalar yəni, fermer bazarları hətta Amerika Birləşmiş Ştatlarında belə təşkil olunur. Ona görə də oxşar praktikaların daha geniş şəkildə Azərbaycanda da tətbiqi məqsədəuyğundur. Bütövlükdə, Azərbaycan Baş Nazirin imzaladığı son sənəd göstərir ki, inflyasiyaya qarşı mübarizə sistemlidir və antiinflyasiya tədbirləri növbəti dövrdə qiymətlərin optimallaşdırılmasına gətirib çıxara bilər".

***Ayşən Vəli***




# Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır

**Dil insanlar arasında təbii ünsiyyət vasitəsi, öz qanunları olan və yalnız bu qanunlar çərçivəsində inkişaf edən canlı varlıqdır. Dil mürəkkəb quruluşa malikdir, lakin insanlar arasında razılığı təmin edən yeganə vasitədir. İnsanı digər canlılardan fərqləndirən ən böyük xüsusiyyətlərdən biridir. Düşünən və danışan insanı yaradan varlıqdır.**

İnsanlar bir hadisə ilə bağlı hisslərini, düşüncələrini, fikirlərini və hisslərini dil vasitəsilə çatdırırlar. O, həm bioloji, həm də mənəvi varlıqdır. İnsanlar dünyada yaşamağa başladığı ilk gündən bir dil quruluşu yaradaraq ünsiyyətə ehtiyac duymuşlar. Dil



sayəsində təbiətdəki varlıqlara məna verib, hər birinə ayrıca ad qoyublar.

Bəs, dillər necə yaranıb? İlk danışılan dil hansıdır? Bu suallar illərdir dilçilərin beynini narahat edir. Lakin bu hissə hələ də həllini tapmayıb. Dilin yaranması ilə bağlı bir neçə nəzəriyyə var. Qısaca ümumiləşdirsək: dildə ilk sözlər əks sözlərdir. Bunlar təbiətdə baş verən hadisələri təqlid edərək ortaya çıxıb. Tırtıltı, xırıltı, xoruldama, tıqqıltı kimi. Yəni mərhəmət (aaah), təəccüb (aaa) kimi duyğulardan yaranan səslər həmin duyğuları təqlid etmiş və dildə həmin duyğu uyğun səslə danışılmağa başlamışdır. Hər bir nəzəriyyə dilin yaranmasının səbəblərini araşdırmış və izah etməyə çalışmışdır.

İnsanlar müqəddəs mətnləri düzgün oxumaq və nəsildən-nəslə ötürmək üçün çox səy göstərmişlər. Bunu edərkən də həmin dilin dilini və ümumi xüsusiyyətlərini yaratmışlar. Məlumdur ki, eramızın IV əsrində Aristotel dillə bağlı müəyyən araşdırmalar aparmış və bu gün isim, fel və ön söz dediyimiz elementləri ilk müəyyən edən şəxs olmuşdur.

Dünya dillərinin necə yarandığı hələ də böyük sirr olaraq qalır. Müşahidələr nəticəsində məlum olub ki, bir-birini tanımayan kar insanlar bir cəmiyyətdə bir araya gəldikdə çox qısa müddətdə öz işarə dilini inkişaf etdirə bilirlər. Bunun ən məşhur nümunəsi 1980-ci illərdə ortaya çıxan Nikaraqua işarə dilidir. Maraqlıdır ki, uşaqlar bu yeni dilin inkişafında mühüm rol oynayıblar. Bununla belə, Manuel Bohn dediyi kimi, bunun tam olaraq necə baş verdiyi məlum deyil.

Beynəlxalq Ana Dili Günü UNESCO-nun 1999-cu il noyabr tarixində keçirilən Baş konfransının 30-cu sessiyasında təsis edilib və 21 fevral 2000-ci ildən dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd edilir.

Ulu Öndərimiz Heydər Əliyev dilimiz haqqında bu kəlamlardan istifadə edib: "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir", "Hər bir dili yaşadan və inkişaf etdirən onun xalqıdır. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Şəxsən mən bu dili sevirəm", "Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir", "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini bilməlidir", "Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir".

SİA Beynəlxalq Ana Dili Günü ilə bağlı təhsil ekspertlərinin, deputatların və dilçi alimlərin fikirlərini öyrənib.

**Təhsil eksperti Kamran Əsədov:** "Hər bir dövlətin var olma səbəbləri, ən vacib atributları sırasında onun dili gəlir. Təbii ki,



dil xalqı formalaşdıran bir amildir. Biz fəxr edirik ki, Azərbaycanın qədim tarixindən bugünə qədər dil tariximiz, dil mədəniyyətimiz var.

Qeyd edim ki, Azərbaycanda "Dövlət Dili Haqqında" qanun tam şəkildə dövlət dilindən istifadəni, eyni zamanda onun qorunmalı olduğu kimi vacib amilləri özündə əks etdirir. Bu gün Azərbaycan dili dünyada 50 milyondan çox insanın ünsiyyət vasitəsidir. Türk dilləri ailəsinə daxil olan bir dil kimi özünün sadəliyinə, dilə yatımlığına görə daima fərqlənib, hətta ən məşhur şəxslərin belə Azərbaycan dili ilə bağlı çox müsbət fikirləri var. Bu gün Azərbaycan orta ümumtəhsil məktəblərində tədris Azərbaycan dilindədir və bu keyfiyyətli formada həyata keçirilir. Bu çox vacib bir amildir. Yəni, hər bir xalqın formalaşması üçün onun dili ən zəruri bir haldır və biz bugün fəxr edə bilərik ki, Azərbaycanın özünün ana dili, doğma dili var. Bu dil qorunur, sevilir. Oxunaqlı dildir, hətta bir sıra təşkilatlarda və rəsmi görüşlərdə belə Azərbaycan dilindən istifadə etmək olur.

Eyni zamanda bu bizim üçün böyük bir dəyərdir. Azərbaycan dilinin özünə qaytarılmasında Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri var, hətta cənab Prezidentimiz İlham Əliyevin 2003-cü ildə imzaladığı sərəncama əsasən bütün kiril hərflərinin qrafikasında olan kitablar dəyişdirildi, Azərbaycan dilində çap olunmağa başladı. Bu Azərbaycan dövlətinin Azərbaycan dilinə verdiyi dərin bir nəticəsidir. Qeyd edim ki, dil vacib bir amildir və o mütləq şəkildə qorunmalıdır".

**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** "Son dövrlər təəssüflər olsun ki, ana dilinə qarşı qeyri- ögey münasibət müşahidə edirik. Bunun da başlıca səbəbi ondan ibarətdir ki, daha çox vətəndaşlar demək olar ki, artıq məişət üslubunda belə rus və yaxud da ingilis dilində danışığa üstünlük verirlər. Bu isə yolverilməzdir o baxımdan ki, yəni, biz yalnız müvafiq dairələrdə və yaxud da müvafiq tələb olunan sahələrdə yalnız əlavə əcnəbi dildən istifadə edə bilərik.



Amma gündəlik məişət üslubunda biz əgər ana dilini kənara qoyub başqa dillərdən istifadə ediriksə, bu birbaşa dilimizə qarşı hörmətsizlikdir, Ana dilinə qarşı həqarətdir. Ona görə də düşünürəm ki, vətəndaşlarımız bu məsələdə diqqətli olmalıdırlar. Bu bizim Konstitusiyada da öz təsdiqini tapıb. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikasının da bütün danışıq dili sırf Azərbaycan dilində olmalıdır. Amma təəssüflər olsun ki, bəzi vətəndaşlarımız bu kimi qadağalara məhəl qoymurlar, hətta aidiyyəti dövlət orqanları var ki, onların üzvləri, onların əməkdaşları bəzən brifinqlərdə, bəzən ümumi vətəndaşların qəbulunda müvafiq olaraq bir cümlədə əlavə iki dəfə, üç dəfə ingilis dilində istinad edir, ingilis dilində sözlərdən istifadə edir və yaxud da rus dilində sözlərdən istifadə edir. Təbii ki, dövlət rəsmisi bu şəkildə danışırsa, biz adi vətəndaşın da dövlət rəsmisindən örnək alırıq və o şəkildə danışması bizim üçün xoş deyil. Yəni, ona görə də dövlət rəsmiləri xüsusilə də bu məsələdə diqqətli olmalıdırlar ki, onların o danışıqları digər şəxslər üçün örnək olmasın.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

Ümumiyyətlə, təkcə bunlar deyil. Son dövrlər bəzi mağaza adları, eyni zamanda şirkət adları və s. Böyük əksəriyyəti artıq xarici dilə istinadən adlar tətbiq edirlər. Burada daha çox üstünlük ingilis dilində sözlər təşkil edir. Bizim ana dilinə qarşı bu cür biganə yanaşmamız gələcək nəsillərin də tədricən dildən uzaqlaşması ilə nəticələnə bilər. Ona görə də yaxşı olar ki, müvafiq olaraq aidiyyəti dövlət orqanları bu məsələdə diqqətli olsunlar. Xüsusilə televiziyalar vasitəsilə digər qeyri-hökumət təşkilatları vasitəsilə yəni, ana dili ilə bağlı nə qədər qeyri-hökumət təşkilatları varsa, onlar maarifləndirmə işləri görməlidirlər və bu sahədə işlər aparmalıdırlar.

Xüsusi olaraq da əsas biz orta ümumtəhsil müəssisələrində sırf Azərbaycan dilinə üstünlük verilməliyik. Yəni, dərslərin böyük əksəriyyəti Azərbaycan dilində keçirilməlidir və müvafiq olaraq bu üstünlükdür. Mən demirəm hər hansı bir vətəndaş xarici dil öyrənməsin. Hər kəs öyrənə bilər. Amma yenə də müvafiq olaraq məişət üslubunda danışıq zamanı mütləq ana dilindən istifadə olunmalıdır və hər bir vətəndaşımız da buna qarşı mübarizə aparmalı, tələb etməlidir ki, müvafiq idarələrə, təşkilatlara və yaxud da müvafiq şirkətlərə daxil olduqları zaman əgər orda hər hansı bir vətəndaş sırf işgüzar üslubda başqa xarici dildə danışırsa ondan ana dilində danışmağı tələb olunmalıdır. Çünki Konstitusiya özü bunu tələb edir".

**Deputat Ceyhun Məmmədov:** "21 fevral bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatı 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə fevralın 21-ni Beynəlxalq Ana Dili Günü elan edib. 21 Fevral - Beynəlxalq Ana Dili Günü Azərbaycanda da hər il qeyd olunur.



Azərbaycan dilinin dövlət dili səviyyəsində tanınması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndərin təşəbbüsü ilə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edildi.

Eləcə də, müstəqillik illərində dahi rəhbərin və onun layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycan dilinin hərtərəfli inkişafına, zənginləşməsinə, onun diplomatik aləmə yol açmasına göstərdiyi qayğı və fədakarlıq dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri oldu.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il tarixli Fərmanına əsasən, hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunur. Hər bir azərbaycanlının müqəddəs və mənəvi borcu ana dilimizi qorumaq, inkişaf etdirmək, gələcək nəsillərə ötürməkdir. Dilimizi sevək, göz bəbəyimiz kimi qoruyaq".

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, fiolologiya elmləri doktoru, professor Sevinc Əliyeva: "Biz KİV vasitəsilə dilimizin bugünkü vəziyyəti ilə tanış oluruq. Beynəlxalq Ana Dili Günü daha çox azsaylı xalqlar üçün əhəmiyyət daşıyır. Azərbaycan dili qədim tarixi köklərə malik olan dildir. Bizim dilimiz özünün lüğət tərkibi ilə seçilir.




Beynəlxalq Ana Dili Günündə də mən bu dildə danışan, dil açan hər bir kəsi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, dilimizin gözəlliklərini sevə-sevə Azərbaycan dilində daha peşəkar danışıb-yazmağı bacaraq.

Ümummilli Liderin təbirilə desək "Bu dildə danışmağımızla fəxr edək, qürur duyaq". Bu dil həqiqətən mükəmməl dildir. Bu dil müxtəlif təsirlərə baxmayaraq özünün lüğət tərkibini qorumağı bacaran dildir. Bizim ata-babalarımız özlərindən sonra bizə böyük bir dil miras qoyublar. Biz də çalışmalıyıq ki, bu dili qoruyaq və gələcək nəsillərə ərməğan edək.

Ümummilli Lider Heydər Əliyev və cənab Prezident İlham Əliyevin sərəncam və fərmanlarında Azərbaycan dilinin saflığının qorunması və düzgün tətbiq məsələləri həmişə gündəmdə olub. Burada 9 aprel 2013-cü il və 1 noyabr 2018-ci il tarixli fərmanları xüsusilə qeyd etmək istəyirəm".

***Ayşən Vəli***



## Erməni bloger: "Rus hərbçiləri üçün gecə klubları və barlar açılmalıdır"

**Davamlı olaraq rəsmi İrəvanın mövqeyinə qarşı çıxması ilə seçilən erməni blogeri İşxan Verdyan Qarabağ ermənilərinə istehza xarakterli tövsiyə edib. O, bildirib ki, ermənilər Rusiya hərbi kontingenti üçün maliyyə vəsaitləri ayırmalıdırlar ki, rus əsgərləri həmin vəsaitlər hesabına əylənsinlər.**

"Biz rus kontingentinin nə olduğunu doğru təsəvvür etməliyik. Onlar heç də işğalçı güclər deyillər, əsla! Rusların ordusu bu postlarda hər zaman dayanıb, hətta Ermənistan respublikası mövcud olmayanda belə. Bu ordu hər zaman dayandığı yerdə dayanıb. Onlar bizə düşmən deyillər, onlar öz evlərindədirlər", deyən erməni bloger həmçinin təklif edib ki, onlara Ermənistanın şərəfli qonaqları kimi yanaşılmalıdır.

### "Ermənistan bu ölkədəki rus hərbçilərinin həyatlarını dolğunlaşdırmalıdır"

O, tövsiyə etməyi də unutmayıb: "Tövsiyə edirəm ki, bizim müdafiəçilərimiz kimi, onların sosial infrastrukturları üçün pullar ayrılmalıdır. Düşünürəm ki, hörmətli zabitlərin ağır həftə sonları üçün əyləncə mərkəzləri, gecə klubları və barlar açılmalıdır. Hesab edirəm ki, Ermənistan bu ölkədəki rus hərbçilərinin həyatlarını dolğunlaşdırmaq üçün hər şey etməlidir və onlar fəaliyyət müddətlərinin sonlarına qədər Ermənistan iqtisadiyyatının vergi ödəyicilərinə çevrilməlidirlər".

***Rövşən RƏSULOV***

## "Yeganə çıxış yolumuz peyvəndləmədən keçir"

**"Bugün artıq gün ərzində yoluxanların sayı sağalanların sayından azdır. Daha doğrusu, sağalanlar yoluxanları üstələyir. Düzdür, gün ərzində həyatını itirənlərin də sayı hələ ki çoxluq təşkil edir və bu heç ürəkaçan mənzərə deyil. Lakin bütün bunlara baxmayaraq vəziyyəti stabil qiymətləndirirəm. Durum nəzarət altındadır və bundan sonra hansı işlər görüləcəyi də aydındır".**

Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib. Onun sözlərinə görə, koronavirusla bağlı vəziyyət insanların özlərindən asılıdır: "Covid-19 ilə mübarizədə əsas peyvəndlənmədir. İkinci peyvəndi qəbul edənlər altı ay keçdikdən sonra üçüncü, "Buster" dozanı qəbul etməlidirlər.

Bugün Azərbaycanda peyvəndlənmə çox sürətlə gedir. Yəni, biz istər həkimlər vasitəsilə, istərsə də poliklinikalarda və yaxud da hansısa bir peyvənd olunan məntəqələrdə görürük ki, insanların buraya axını çoxdur. Çünki xəstəlikdən qorunmaq üçün yeganə çıxış yolumuz peyvəndləmədən keçir".

Deputat sözlərinə belə davam edib: "Bugün statistikaya baxdıqda sağalanların sayının yoluxanların sayını üstələməsini görürük. Bu da ürəkaçan bir mənzərədir. Bəs, bu bəladan necə xilas ola bilərik? Əlbəttə ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına və tövsiyələrinə riayət etməklə, peyvəndləmə yolu ilə özümüzü virusdan mühafizə edə bilərik.

Qeyd edim ki, hətta peyvəndlənən insanlar belə bu xəstəliyə, xüsusilə də "Omikron" ştammına yoluxanda bunu çox yüngül bir formada keçirirlər. Hətta bəziləri bilmirlər ki, "Omikron"a yoluxublar. Bu adi qrip virusunun törətdiyi əlamətlərlə müşahidə olunur. Nəticə etibarilə, insanlara peyvəndləmə çox kömək edir.

İnsanlar peyvənd olunublarsa bu ştamma yoluxanda çox yüngül bir formada virusdan qurtula bilirlər. Ona görə də bir daha insanlarımıza üz tuturam ki, vaksin olunsunlar. İnsanlar gigiyenik qaydalara riayət etməklə yanaşı, sosial məsafənin saxlanılması, qapalı yerlərdə maskadan istifadə və profilaktik qaydalara əməl etməklə yəqin ki, biz bu qış mövsümünü uğurla başa çıxa bilərik".

***Ayşən Vəli***




## Lənkəran şəhərində yeni Bakcell mağazası açıldı

**Bakcell Lənkəran şəhərində yenilənmiş konsept mağazasını istifadəyə verib. Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni dükan özündə müştəri xidməti, eyni zamanda nömrə və aksessuar satışı funksiyasını birləşdirərək "hər şey bir arada" innovativ konsepsiyası əsasında qurulub. Lənkəran şəh., Həzi Aslanov xiyabanı 26 (Lənkəran Dövlət Universiteti ilə üzbəüz) ünvanında yerləşən yeni mağazanın qurulmasında müştəri yönümlü yanaşmadan istifadə edilib.**




"Əminəm ki, bu konsept mağazada Lənkəranda yaşayan bütün müştərilərimizə daha üstün keyfiyyətli xidmət göstərəcəyik, çünki bütün yeni açılan mərkəzlərimizdə olduğu kimi, burada da bütün xidmət prosesi "hər şeyin mərkəzində müştəri dayanır" yanaşması üzərində qurulub. Xidmətlərimizi Azərbaycanın bütün regionlarında yaşayan abunəçilərimiz üçün daha əlçatan etmək məqsədilə biz ölkənin müxtəlif şəhər və rayonlarında yeni konsept mağazaların qurulmasını davam etdirəcəyik", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, Bakcell şirkəti bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb. 2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 9 minə yaxın baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.6%-ni əhatə edir.

# Alternativ Laçın yolu:

## şəhər və kəndlərimiz Ordumuzun nəzarətində!




**Azərbaycan üçtərəfli bəyanatın nəticələrinə əsasən, hər iki istiqamətdə Laçın dəhlizi vasitəsi ilə hərəkət edən vətəndaşlara, nəqliyyat vasitələrinə və yüklərə təhlükəsizlik zəmanəti verir**

Məlum olduğu kimi, Laçın şəhərindən yan keçən avtomobil yolu bu ilin yayında istifadəyə veriləcək. Artıq bu haqda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov da məlumat verib.

"Hazırda ermənilər Laçın şəhərinə daxil olaraq hərəkət edirlər. Laçından keçmədən çəkilən alternativ yoldan həm ermənilər, həm də bizim öz vətəndaşlarımız istifadə edəcəklər. Həmin yol Laçının 6 kəndini birləşdirəcək. Sözügedən alternativ 28 km olan yolun artıq 17 km-i çəkilib və bu ilin iyul ayına qədər istifadəyə veriləcək", deyə o bildirib.

### Ermənilər nə qədər nala-mıxa döyəcləsələr də...

Bu xüsusda, digər məqamlar da var ki, həmin məqamlar Laçın şəhərinin bütövlükdə Azərbaycanın nəzarətinə keçməsi reallığını sürətləndirir. Belə ki, bildiyimiz kimi, 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanatda bildirilir ki, 3,5 ərzində Dağlıq Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizi ilə hərəkət üçün yeni marşrut planı müəyyən ediləcək. Azərbaycan isə bu bəndə əsasən, hər iki istiqamətdə Laçın dəhlizi vasitəsi ilə hərəkət edən vətəndaşlara, nəqliyyat vasitələrinə və yüklərə təhlükəsizlik zəmanəti verir.

Onu da xatırladaq ki, bu gün Rusiya sülhməramlılarının müvəqqəti olaraq Qarabağda yerləşdikləri ərazilərimizdə qalan separatçı tör-töküntülər, eləcə də onların Ermənistandakı havadarları üçtərəfli bəyanatda vurğulanan və qəbul edilən bəndlərə tabe olmamaq üçün əsl mənasında nala-mıxa döyəcləyirlər.

### Öncə Zabuxda, ardınca isə Laçın yolu üzərində sərhəd-keçid məntəqələri qurulacaq

Ancaq hər şeyə rəğmən proses davam edir və qısa müddət ərzində - artıq yuxarıda da qeyd edildiyi kimi, iyul ayında alternativ yol istifadəyə veriləcək.

Eyni zamanda, hazırda rus sülhməramlılarının nəzarətlərində olan Zabux kəndi və Laçın şəhəri də Azərbaycan Ordusunun nəzarətinə keçəcək. Beləliklə, alternatiiv yol istifadəyə verilәndən sonra Bakı tam mənada ilk olaraq Laçın yolu üzərindəki Zabuxda ardınca isə alternativ yolun girişində öz sərhəd-keçid məntəqələrini qurmaqla bu ərazilərimizi də tam nəzarətə götürəcək.




**Rövşən RƏSULOV**

# Televiziyalar dilimizi niyə korlayır?



Elçin Bayramlı

**Televiziya bütün dövrlərdə ən güclü təbliğat vasitəsi hesab olunub. Ədəbi dilin formalaşmasında TV-lərin rolu böyükdür. Bütün ölkələrdə olduğu kimi, Azərbaycan ədəbi dilinin formalaşmasında, xalq tərəfindən öyrənilməsində də televiziyanın böyük rolu olub. Bu gün AzTV istisna olmaqla televiziyaların demək olar ki, hamısında dil problemi mövcuddur. Aparıcılar ədəbi dili kənara qoyub, jarqonlar, əcnəbi sözlərlə, ara kəlmələri ilə danışırlar. İTV-də belə qüsurlara nadir hallarda rast gəlinir, lakin özəl kanallarda belə halların sayı-hesabı yoxdur.**

Üzeyir Hacıbəyov "Yeni üsuli-təbii haqqında bir neçə söz" adlı məqaləsində (Tərəqqi qəzetinin 1909-cu il mart tarixli nömrəsində) yazırdı: "Biz müəllimlər öz dilimizi bilmirik və bilmədiyimiz üçün bədbəxt dilimizi xarab edirik. Yüzlərlə müəllim ana dilinin qaydalarından heç nə bilmir". Məqalənin yazılmasından 1 əsrdən çox keçsə də, orada qeyd olunan fikirlər öz aktuallığını bu gün də saxlamaqdadır. Dilimizi ən çox internet mediası korlasa da, bunu televiziyalara da aid etmək olar. Müasir dövrdə televiziya və radio kanallarnın dili olduqca çox müzakirə edilən məsələdir. Bu həmin sahədə çalışan əməkdaşların bəzilərinin konkret olaraq savadsızlığından, digər qisminin isə xarici dillərə meylindən irəli gəlir.

Bəzən kanallarda bundan sui-istifadə halları olur. Onlar bəzən verilişlərə dəvət etdikləri qonaqlarla xarici dilə aid sözlərlə danışırlar. Onların cümləsinin bir hissəsi türkcə, bir hissəsi rusca, bir hissəsi ingiliscə qurulur.

Sözlərin "qol-qabırğasını" sındıra-sındıra, hər sözə bir şəkilçi artırmaq və ya azaltmaqla danışmağı kimlərsə dəb salır. Qeyri-səlis tələffüz və diksiya problemi olan aparıcı televiziyanın imicinə güclü ziyan vurur, amma nədənsə bunu telekanal rəhbərliyi görmür, ya da... Efirdə belə bir aparıcını görən tamaşaçı isə bunu özünə qarşı təhqir hesab edir, telekanalı daha az izləyir.

Kommersiya telekanalların aparıcılarına baxanda aydınca görünür ki, intellektual bazaya, normal söz ehtiyatına və ana dilində savadlı danışıq qabiliyyətinə malik deyillər. Bunu söz bazasının zənginliyi barədə də demək olar. Məsələn, Rusiyada TV və mətbuatda 200 mindən çox söz istifadə olunduğu halda, Azərbaycanda mediada istifadə olunan sözlərin sayı 50 mindən artıq deyil. Son vaxtlar isə əksər aparıcı və jurnalistlər cəmi bir neçə min sözlə danışır və yazırlar ki, bu da dilimizin imkanlarına müvafiq deyil.

Bəzi aparıcılar robotu xatırladır. Standart sözlər və ifadələr, şablon cümlələr, məişət danışıq stili

Elə aparıcılar var ki, diksiyası yerindədir, amma danışan kimi hiss edilir ki, onun savad və dünyagörüşü çox azdır, həyat təcrübəsi yoxdur. Aparıcıların yaş faktoru da oldüqca vacibdir. Bizim xəbər aparıcılarına baxın, çoxu 20-25 yaşlı gənclərdir. Həyat təcrübəsi az olan, savadı və söz bazası zəif olan birinin TV-dən xalqa məsləhət verməsi də bir başqa problemdir.

Televiziya və radiolardakı bu problemə nəzarət edən, cəza tədbiri görən bir instansiya olmadığından vəziyyət yaxşılaşmaq əvəzinə pisləşir. Üstəlik, televiziya və radioların ucuz işçi qüvvəsi olaraq diletantları cəlb etməsi, peşəkarların kənarda qalmasına səbəb olur və nəticədə bu özünü efirdə aydın göstərir.

Bu məsələ çox vacibdir, biz ana dilimizi qorumasaq, tezliklə dilimiz tamam dəyişəcək, nəsillər arası əlaqə qırılacaq, yeni nəsillər köhnə nəsillərlə bir-birini başa düşməyəcək, yenilər köhnə ədəbiyyatı oxuyanda, köhnə filmlərimizə baxanda çoxunu başa düşməyəcək. Min illərdir qoruyub bu günədək gətirib çıxardığımız milli sərvətimizi indi itirməli deyilik.

Ana dilinin qorunması haqda xüsusi qanun qəbul olunmalı, mediada ana dilinin qaydalarına uyğun olmayan, dilimizin rəsmi lüğət ən azı qınaq tətbiq olunmalıdır. Dəfələrlə qəsdən təkrralanan hallarda isə cərimələr tətbiq etmək olar.

# "Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindəndir"

"Azərbaycan Xocalı soyqırımının dünyada tanınması istiqamətində xeyli işlər görüb və bu işlər hələ də davam edir. Lakin nəzərə almaq lazımdır ki, düşmənin tərəfdarları çox olduğuna görə, bu proses istənilən səviyyədə getmir. Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindən olsa da, bu soyqırımın tanınmasına dünyada, xüsusən Qərbdə geniş yayılan türk-islam düşmənçiliyi də ciddi maneə törədir". "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Xocalı soyqırımını törədən Ermənistana "gözün üstə qaşın var" deməyən Minsk Qrupunun üzvləri ABŞ, Qərb və Rusiya 44 günlük müharibədə Ermənistan ordusunu darmadağın edib, işğal altında olan torpağından çıxaran Azərbaycana qarşı çirkin tələblər irəli sürmələri də, məhz türk-islam düşmənçiliyinə bariz nümunədir: "Minsk Qrupunun üzvü olan məlum dövlətlər faciənin törədilməsindən 30 il keçməsinə baxmayaraq, Xocalı soyqırımını tanımayıblarsa, bunun günahını Azərbaycanda yox, özlərini dünyada "demokratiyanın, haqq-ədalətin carçısı" sayan həmin superdövlətlərin ədalətsizliyindədir. Amma bütün maneələrə rəğmən biz Xocalı soyqırımının dünyada tanınması işindən geri çəkilməməli və bu yol nə qədər çətin olsa da, davam etməliyik. Təəssüflə qeyd edirəm ki, 44 gün müharibədə qalibiyyətlə davam edən Azərbaycan ordusu düşmən üzərində tam qələbə çalmağa yaxın olsa da, Rusiya bütün Qarabağı, o cümlədən Xocalını da azad etməyə imkan vermədi və biz Xocalı soyqırımının 30 illiyini yenə də Bakıda "Ana harayı" abidəsi önündə qeyd etməyə məcburuq".

**Gülyana**



# 90-cı illərin gəncliyinin ən acı xatirəsi - Xocalı faciəsi

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən o müdhiş faciəyə qədər 90-cı illərin gəncləri 1990-cı ildə 20 Yanvar faciəsini yaşamış, faciənin şahidləri və şəhidləri olmuşdular. Həyata müstəqil addımlarını atan o dövrün gəncləri Xocalı faciəsinə qədər həmçinin 1988-ci ildən ermənilər tərəfindən ölkəmizə qarşı başlanılan işğalçılıq siyasətinin, torpaqlarımızın bir-birinin ardınca ozamankı ölkə rəhbərləri tərəfindən satıldığının da şahidi olmuş, ərazi bütövlüyümüz uğrunda canlarından keçən ataların övladları olaraq bu acı taleni yaşamışlar. Tarixin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının törədilməsindən ötən 30 il ərzində bu şəhid şəhər, onun son anadək qəhrəmanlıqla öz ana yurdunu müdafiə edən sakinləri hər an ürəkağrısı ilə xatırlanıb və bir gecənin qurbanı olan insanlara qarşı edilən vəhşiliyin beynəlxalq aləmdə tanınması üçün həm dövlətimiz, həm də o dövrkü və müasir gənclik tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: "Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırımı da dünyanın bir çox yerlərində baş veribdir. Azərbaycana qarşı Ermənistan qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırımı bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımları xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır...".



*Mətanət MƏMMƏDOVA*
*Əməkdar jurnalist*

## Xocalının işğal səbəbləri

"Böyük Ermənistan" xülyasında olanların Xocalını hədəf seçmələrini bu cür xarakterizə etmək olar: Xocalı mühüm geostrateji mövqeyə malik bir şəhərdir. Qarabağdakı yeganə hava limanı da məhz burada yerləşirdi. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Dağlıq Qarabağ nəzarətin tam ələ keçirilməsi, eyni zamanda hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Digər tərəfdən, strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də xalqımıza məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal edildəndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdır.

## Xocalı faciəsinə gedən yol və ya satılan şəhər

Xocalı faciəsinə gedən yol düşmənin havadarlarının dəstəyi ilə əvvəlcədən hazırladığı plan üzrə baş tutmuşdu. Xocalı hələ 1991-ci ilin oktyabr ayından blokada vəziyyətinə alınmış, 1991-ci ilin ok-tyabrında Tuğ və Sələkətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevralında isə Malıbəyli və Quşçular kəndlərini işğal etmiş, həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş erməni muzdlu döyüşçülərin hesabına işğal olunmuşdu. Xocalını əhatə edən Dasbulaq, Mehdikənd, Ballıca, Həsən-abad, Pirəmeki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı.

Xocalı şəhəri isə hələ fevralın ortalarından erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tuturulurdu. İşğal gecəsi isə Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı da 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Dəfələrlə Azərbaycan rəhbərliyindən kömək istəyən xocalılara heç bir köməklik göstərilməmiş, bir şəhərin və onun minlərlə sakininin taleyinə biganə yanaşılmış, düşmən üçün əlverişli şərait yaradılmışdır. Nəticə etbarilə, Xocalı satılmış şəhər olaraq düşmənin əlinə çox asanlıqla keçmişdir. Bu kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla, 613 dinc sakin qətlə yetirilmiş, 1275 nəfər isə əsir götürülmüş, onlar arasında hələ də taleyi məlum olmayan 150 nəfər var. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən isə 76-sı uşaq idi. Təəssüflər olsun ki, həmin dövrdə Azərbaycana rəhbərlik edənlər erməniləri dəstəkləyən sovet ittifaqı rəhbərləri ilə əlbir olaraq Xocalı soyqırımına biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar.

## Xocalı faciəsinə ilk münasibəti Naxçıvandan ümummilli lider bildirdi

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan və "Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş bir təzahürüdür", - deyən görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17:00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

## Son 18 ilin hər anında Xocalı var

"Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu 200 ildən artıq müddətdə davakar erməni millətçilərinin bizim xalqımıza qarşı yürütdüyü soyqırım və etnik təmizləmə siyasətinin tərkib hissəsidir. Xocalı dəhşətlərini törədənlər elə sandı ki, Azərbaycan xalqını qorxuda biləcəklər, lakin mübariz millətimiz öz suverenliyi uğrunda dəyanət nümayiş etdirib və etdirəcək də",- deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 18 il ərzində beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər çəkilib, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət!" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi atılan mühüm addımlardandır. Prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət!" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş olunur. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap edilir, televiziya və radiolarda verilişlər hazırlanır. Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalı qətliamını kəskin pisləyirlər. 2010-cu ildə İslam Əməkdaşlıq Təşkilatı "Xocalıya ədalət!" kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir.

Prezident Kitabxanasının tərtib etdiyi "XX əsrin faciəsi - Xocalı soyqırımı" elektron layihəsi XX yüzilliyin sonlarında törədilmiş, bəşər tarixinin ən böyük faciələrindən biri - Xocalı soyqırımı haqqında tammətnli elektron nəşrdir. "Xocalı soyqırımı", "Rəsmi materiallar", "Xocalı faciəsinin əks-sədası", "Xocalıya ədalət!", "Xocalı soyqırımının tanıdılması" və "Elektron resurslar" adlı altı bölmədən və 430 səhifədən ibarət olan həmin elektron nəşrdə Xocalı faciəsi ilə bağlı istənilən faktı, rəqəmi, tarixi sənədi tapmaq mümkündür.

## Ərazi bötövlüyümüzün bərpası ilə qisas qiyamətə qalmadı

Dövlət başçısı İlham Əliyevin son 17 ildə həyata keçirdiyi qüdrətli dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi sayəsində 2016-cı ilin Aprel döyüşlərində və 2018-ci ilin may ayında qazanılan zəfərlər Böyük Qələbə gününü daha da yaxınlaşdırmışdı. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başlanılan əks-hücum əməliyyatının parlaq qalibiyyətlə yekunlaşması məhz bu baxımdan heç də təsadüfi deyildi.

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: "... biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək. Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir". Bəli, Qarabağa qayıtmaqla bağlı ata vəsiyyəti 30 il sonra reallığa çevrildi. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində uğurlu strategiyanın tətbiqi ilə ən müasir silahlardan istifadə nəticəsində ordumuzun bölmələri işğal altındakı ərazilərimizi yağılardan təmizlədi, düşmənin komanda-idarəetmə məntəqələri, raket və artilleriya vasitələri, döyüş texnikaları və təminatı sıradan çıxarıldı, düşmən faktiki olaraq iflic vəziyyətinə gətirildi. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gerçəkləşdirərək hərb tarixinə qısa zamanda böyük nailiyyət kimi yenilik gətirdi. Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük bir qismi işğaldan azad olundu. Ümumilikdə, 20 Yanvar, Qarabağ şəhidlərinin, eləcə də həm Xocalının, həm də xocalıların qisası alındı. Azərbaycan Ordusunun hücumuna, Vətən oğullarının qətiyyəti qarşısında davam gətirə bilməyən düşmən noyabrın 10-da kapitulyasiya haqqında Bəyanatı imzalamağa məcbur qaldı. Bəyanata uyğun olaraq noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu işğaldan azad edildi. Döyüş meydanında məğlubiyyəti ilə barışmayan Ermənistan hakimiyyətinin göstərişi əsasında erməni silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması, 44 gündə 100-ə yaxın mülki şəxsin ölümünə, 400-dən artıq insanın yaralanmasına səbəb olan terror aktlarını törədməsinə, eyni zamanda 10 noyabr razılaşmasına uyğun olaraq Ağdam, Kəlbəcər və Laçını boşaldarkən edilən vəhşiliklərə qarşı bəzi ölkələrin biganə münasibəti Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin 30 il uzanmasının səbəblərini bütün aydınlığı ilə üzə çıxardı.

44 gün ərzində müzəffər Ordumuz, "Dəmir yumruq" ermənilərə tarixi bir dərs verdi. Ölkə başçısının da dediyi kimi: "Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu, demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb..."

## Xocalı faciəsi heç vaxt unudulmayacaq

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın söylədiyi kimi: "Xocalı soyqırımı kimi faciələr unudula bilməz. Günahsız insanların vəhşicəsinə qətlə yetirilməsinə heç nə ilə haqq qazandırmaq olmaz! Biz o dəhşətli hadisələr haqqında həqiqətləri təhrif olunması cəhdlərindən hər zaman qoruyacağıq...".

Bəli, 1990-cı illərin gənclərinin - ölkənin ictimai-siyasi həyatının ozamankı şahidlərinin acı xatirəsi olaraq müasir gəncliyin bilgisinə çevrilən, 1905-1907, 1918-ci illərin ağır soyqırımlarının davamı və hər bir Azərbaycan vətəndaşının qan yaddaşı olan Xocalı faciəsi bu xalq, bu millət yaşadıqca yaşayacaq. Günahsız, əliyalın, bir gecənin qurbanı olan, şaxtalı bir gecədə evindən-eşiyindən çıxarılan, dağlarda, meşələrdə həftələrlə ac-susuz qalan xocalılara qarşı törədilən soyqırımı, gözlərinin önündə əzizlərinin və ata-baba yurdlarının şəhid edilməsi bütün xalqımıza, ümumilikdə bəşəriyyətə, insan amilinə qarşı törədilən faciədir. İnsan övladı var olduğca bu faciə heç vaxt unudula bilməz. Azərbaycan xalqı Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla yad edir. Biz ona da əminik ki, zaman gələcək ki, bütün dünya erməni qəddarlığını, vəhşiliyini lənətləyəcək, şəhid şəhər Xocalının, Qarabağın viran edilmiş bölgələrinin böyük haqsızlığa uğradığına haqq qazandıracaq.

# Rus ekspert:
## “Rusiya-Azərbaycan müttəfiqliyi bəzi qüvvələrin xoşuna gəlməyəcək, amma bu, vacibdir”

İqor Korotçenko: “Rusiyanın indi etməli olduğu şey, ilk növbədə, Azərbaycanın Qarabağ bölgəsindən qanunsuz erməni silahlı birləşmələrinin tezliklə çıxarılmasına siyasi töhfə verməkdir, bunu etmək son dərəcə zəruridir”



Bu gün Moskvada Rusiya Prezidenti Vladimir Putinlə Rusiyada rəsmi səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev arasında danışıqlar başlayıb. Danışıqlar iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ərəfəsində keçirilir. Kremlin məlumatına görə, görüşdə siyasi, ticarət-iqtisadi və humanitar sahələrdə ikitərəfli münasibətlərin gələcək inkişafı məsələlərinin bütün spektrinin müzakirəsi olunacaq. Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında Dağlıq Qarabağ üzrə 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli sazişlərin, o cümlədən Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpasına dair tədbirlərə də baxılacaq. Danışıqların yekunu olaraq Rusiya ilə Azərbaycan arasında münasibətləri müttəfiqlik səviyyəsinə çatdıran Müttəfiq Əməkdaşlıq haqqında Bəyannamə imzalanacaq. Rusiya və Azərbaycan münasibətlərinin statusunun artması praktikada nə demək olacaq və bu, regiondakı münasibətlərə necə təsir edəcək?

Politoloq, ”Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko bu barədə fikirlərini ”Moskva-Baku” platformasına verdiyi şərhində açıqlayıb. Ekspertin şərhini oxucularımıza təqdim edirik.

- Rusiya və Azərbaycan liderləri tərəfindən qarşıdan gələn Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalanması ölkələrimiz arasında bütün münasibətlər kompleksinin əsaslı şəkildə yeni səviyyəyə qaldırılması səbəb olacaq. Azərbaycan Rusiyanın postsovet məkanında əsas strateji tərəfdaşlarından biridir. İlham Əliyevin simasında isə Bakının son illərdə artan nüfuzunu, xüsusən İkinci Qarabağ müharibəsində qələbə çaldıqdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdikdən sonra biz ən böyük beynəlxalq siyasətçilərdən birini görürük. Bu gün təkcə Cənubi Qafqaz regionunda deyil, onun hüdudlarından kənarda da Rusiya ilə Azərbaycan arasında münasibətlərin statusundan çox şey asılıdır. Münasibətlərimizin müttəfiqlik səviyyəsinə keçməsi digər məsələlərlə yanaşı, beynəlxalq vəziyyətə də müsbət təsir göstərəcək.

Rusiyanın ekspert icması Azərbaycan Prezidentinin Moskvaya səfərini alqışlayır. Biz onda Rusiya Federasiyası ilə əlaqələrin möhkəmləndirilməsi üçün çox işlər görən bir insan görürük.

Mən o ekspertlərdənəm ki, dəfələrlə qeyd etmişəm ki, Azərbaycan Rusiyanın Cənubi Qafqazda bəlkə də yeganə etibarlı müttəfiqidir. Və son illərdə bu tezisin doğruluğu dəfələrlə təsdiqlənib. Müasir dünyada ölkələrin bir-birinə güvənməsi çox vacibdir. Dövlətlərimiz isə buna sadəcə bir misaldır. Putinlə Əliyev arasında yaxın şəxsi münasibətlər var- liderlər həqiqətən bir-birinə güvənir və bilirlər ki, onlar arasında əldə olunan razılaşmalar həmişə yerinə yetiriləcək. Müasir beynəlxalq münasibətlərdə bu çox nadir bir keyfiyyətdir.



Rusiya və Azərbaycan prezidentlərinin belə bir yoldaşlıq, bir-birinə hörmət və ən əsası tərəfdaşın etibarlılığına inam hissi çox vacibdir, xüsusilə də dünyanın əvvəllər necə xaosa girdiyini görəndə. Rusiya ilə Azərbaycan arasında münasibətlərin hazırkı səviyyəsi, şübhəsiz ki, fəxr etməli, qiymətləndirilməli və qorunmalıdır. Rusiya-Azərbaycan münasibətləri iki dövlət arasında münasibətlərin demək olar ki, ideal variantıdır. Biz Azərbaycanda rus icmasına, rus dilinə münasibəti çox yüksək qiymətləndiririk, Rusiya Federasiyasına dost münasibəti yüksək qiymətləndiririk.

Münasibətlərimizin belə yüksək səviyyədə olması çoxlarının xoşuna gəlmir. Şübhəsiz ki, sənədin imzalanması qarşılıqlı fəaliyyətimizdən mənfi narahat olanların hamısına aydın cavabdır. Biz irəliləyirik, prinsipcə yeni səviyyəyə çatırıq.

Biz Azərbaycanın KTMT-də müşahidəçi statusu almasını alqışlayardıq. Biz onun AİI daxilində iqtisadi inteqrasiyasını alqışlayardıq. Bu cür qərarlar qəbul edib-etməmək Azərbaycanın öz seçimidir, suveren ölkənin seçimidir.

İmzalanma həm də Qərbə siqnaldırmı? Əslində, münasibətlərimizin səviyyəsinin yüksəlməsi ona görə baş vermir ki, biz kiməsə hansısa siqnallar göndərmək istəyirik, biz bunu ölkələrimiz adına, xalqlarımız adına edirik. Rusiya və Azərbaycan sırf öz ölkələrinin milli maraqlarına diqqət yetirən liderlərin rəhbərlik etdiyi özünü təmin edən ölkələrdir. Dünyada belə siyasətçilər çox azdır, hamı kimdənsə asılıdır, bu və ya digər vəziyyətə uyğunlaşmağa çalışır. Rusiya və Azərbaycan heç kimə uyğunlaşmır, çünki onlar tamamilə suverendirlər.

Sənədin imzalanması Ermənistanda necə qarşılanacaq? Biz Rusiyada Azərbaycanla müttəfiqliyi Ermənistana zərbə hesab etmirik. Ola bilsin ki, bəzi erməni şərhçilər bunu belə şərh etsinlər. Amma biz Qarabağ münaqişəsinin bitdiyini nəzərə alaraq bunu belə hesab etmirik. Qarabağın tamamilə Azərbaycanın nəzarətinə qaytarılacağı andan bizi bir neçə il ayırır. Rusiya sülhməramlıları öz missiyasını uğurla yerinə yetirəcəklər. Mən buna tam əminəm. Ermənistan üçün isə mehriban qonşuluq və əməkdaşlıqdan başqa alternativ yoxdur. Hətta Paşinyan da indi bunu anlamağa başlayıb, baxmayaraq ki, biz bəzən ondan bir addım irəli, iki addım geri çəkildiyini görürük. Onun Zəngəzur dəhlizi ilə bağlı son açıqlamaları məni həddsiz dərəcədə sevindirdi. Allah hər şeyin yaxşı olmasını nəsib etsin. Ermənistan görməlidir ki, onun bəzi mifləri müasir dünyada işləmir. Vicdanlı əməkdaşlıq, ortaqlıq deyilən işləri görsünlər. Ermənistan Azərbaycandan öyrənsin ki, necə inkişaf etsin, hansı cəmiyyət modeli göstərilsin. Ən əsası isə bu gün Moskva ilə Bakı arasında mövcud olan münasibətləri əsas götürmək, öz davranış modelimizi dəyişmək. Yaxşıya doğru dəyişmək lazımdır, bu, ilk növbədə, Ermənistanın özünə lazımdır.

KTMT-də Rusiyanın müttəfiqi olan Ermənistan dəfələrlə Rusiyanın nəsə borcu olduğuna eyham vurub və ya birbaşa deyib. Amma müttəfiqlik münasibətləri o demək deyil ki, kiminsə kiməsə borcu var. Bu, ikitərəfli bir küçədir. Rusiya Ermənistana nə qədər verirsə, Ermənistan da Rusiyaya o qədər verməlidir. Amma çox vaxt biz bunu görmürük. İrəvanda müəyyən bir milli eqoizm var və biz ondan zaman-zaman ancaq bəzi mantralar eşidirik ki, Cənubi Qafqazda az qala rus İsraili olmağımıza icazə versin, və sən bizə pul və pulsuz silah verməlisən. Amma bu hiylələr işləməyəcək. Burada axmaqlar yoxdur.

Bundan başqa, Rusiya və Azərbaycan prezidentləri arasında danışıqlarda Qarabağ trasındakı vəziyyət müzakirə olunacaq. Əslində, burada hər şey müəyyən edilir. Üçtərəfli bəyanat var, Moskva razılaşmaları var, Soçi razılaşmaları var. Rusiya Azərbaycanın ərazi bütövlüyünü dəfələrlə təsdiqləyib. Qarabağ nizamlanması məsələsində indi prezidentlərin saatlarını üzbəüz tutuşdurmaq və bu və ya digər tərəfi narahat edən konsensus həllər tapmaq imkanı var. Bir daha vurğulayıram ki, Zəngəzur dəhlizi praktiki olaraq Putinin şəxsi siyasi təşəbbüsüdür. Dövlət başçısı isə dəfələrlə ”dəhliz” sözünü dilə gətirib. Bu baxımdan, heç bir uyğunsuzluq ola bilməz.

Mənə elə gəlir ki, Rusiyanın indi etməli olduğu şey, ilk növbədə, Azərbaycanın Qarabağ bölgəsindən qanunsuz erməni silahlı birləşmələrinin tezliklə çıxarılmasına siyasi töhfə verməkdir, bunu etmək son dərəcə zəruridir. Rusiya sülhməramlıları çıxarılana qədər bu ərazinin necə idarə olunacağını düşünmək vacibdir. Biz görürük ki, separatçılar heç bir konstruktiv əhval-ruhiyyədə deyillər, sadəcə olaraq toqquşmalarla genişmiqyaslı təxribat həyata keçirməyə çalışırlar.

**Tərcümə - Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

## “Nar” Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 88%-i xidmət səviyyəsini yüksək qiymətləndirib

nar

Müştəriyönümlü strategiyasına sadiq qalan ”Nar” ötən il ərzində müxtəlif kanallar üzərindən abunəçilərinə üstün müştəri xidmətləri göstərib. 2021-ci ildə 777 Çağrı Mərkəzinə 2,3 milyondan çox sorğu daxil olub və orta hesabla, 5 saniyə ərzində abunəçilərə cavab verilib. Abunəçi sorğularının ilk zəngdən həllini tapması üzrə ”Nar” Çağrı Mərkəzi 94%-lik çox yüksək göstəriciyə nail olub. Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 88%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib.

Müştəri məmnuniyyətininin artırılması məqsədi ilə mobil operator bütün ölkə boyu eksklüziv diler və xidmət mərkəzlərini yeni konseptdə təqdim etməkdədir. Mobil operator artıq 26 mağazasını tamamilə yeni konseptə uyğunlaşdırmaqla, ziyarətçilərin müasir üslubda məlumat və xidmət almasını təmin edir. Şəxsin birbaşa iştirakının tələb olunduğu əməliyyatlar üçün yenilənmiş xidmət mərkəzlərində ötən il 150 mindən çox abunəçiyə xidmət göstərilib.

Müştəri xidmətlərini daha da əlverişli etmək üçün, Nar, ənənəvi müştəri xidməti vasitələrilə yanaşı, abunəçilərinə rəqəmsal platformalar üzərindən göstərilən müştəri xidmətlərini də təkmilləşdirir. Yeniləmələr sayəsində həsab üzərində əməliyyatları daha da asanlaşdıran ”Nar+” tətbiqinə ziyarət sayı ötən illə müqayisədə 75% artıb. Qeyd edək ki, sosial mediada da aktiv olan mobil operator, rəsmi ”Facebook”, ”İnstagram” və ”Twitter” səhifələri üzərindən abunəçilərinin sorğularını da cavablandırır. Ötən ilin göstəricilərinə əsasən təxminən 160 min Nar abunəçisinin sorğusu məhz sosial media səhifələri üzərindən həll edilib.

”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. ”Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. ”Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən ”HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib.

# Neymar: "Pelenin rekordunu qıracam"



**PSJ-nin və futbol üzrə Braziliya millisinin futbolçusu Neymar yığmadakı karyerası barədə danışıb. İspaniyanın nüfuzlu "Marca" nəşrinin yazdığına görə, 29 yaşlı hücumçu millinin bombardiri olmaq istədiyini deyib: "Milli komandanın bombardiri olmaq mənim üçün böyük şərəf olardı. Təbii ki, bu mənim şəxsi məqsədlərimdən biridir. Mən bombardir olacağıma ümid edirəm. Pelenin rekordunu qıra bilərəm. O, Braziliyada hamı üçün kumirdir".**

**Qeyd edək ki, Neymarın Braziliya yığmasında 116 oyuna 70 qol vurub və bombardirlər siyahısında 2-cidir. Rekord isə 92 oyunda 77 qol vuran əfsanəvi futbolçu Peleyə məxsusdur.**

# Tayson üçün 41 milyon dollarlıq döyüş!



***Dünya Boks Şurasının (WBC) ağır çəkidə britaniyalı çempionu Tayson Fyuri həmyerlisi Dillian Uaytla döyüşəcək. SİA-nın "Sky Sports"a istinadən verdiyi məlumata görə, tərəflər bununla bağlı müqavilə imzalayıblar.***

Görüşün mükafat fondu 41 milyon ABŞ dollarından çox olacaq ki, bu da boks tarixində ən böyük mükafat hesab edilir. Duel baş tutsa, Fyuri 29 milyon dollar, rəqibi isə 7 milyon dollar əldə edəcək. Qalib isə əlavə 4 milyon dollar alacaq. Sözləşmə fevralın 21-də WBC-yə göndərilib. Təşkilatın rəhbərliyi döyüşün keçirilməsinə icazə verməlidir. Qarşılaşmanın aprelin 23-də Londondakı "Uembli" stadionunda olacağı gözlənilir.

Qeyd edək ki, Tayson Fyuri karyerasında 31 qələbə və 1 heç-heçə əldə edib. Uaytın isə 28 qələbə və 2 məğlubiyyəti var.

***Banuçiçək Hüseynli***

# 13 yaşlı şagird "İnstaqram"da paylaşım etdi və həbs olundu



ABŞ-ın Florida ştatında 13 yaşlı şagird Nia Vhims sosial şəbəkədəki paylaşımlarına görə həbs edilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, "İnstaqram" hesabından məktəb təhlükəsizliyini təhdid edən məzmun yerləşdirib. Nianın günahsız olduğunu sübut etməsi iki həftə çəkib. Bu müddət ərzində o, həbsdə olub. İP ünvanının müəyyən edilməsi ilə məlum olub ki, paylaşımlar Nianın sinif yoldaşı tərəfindən edilib. Dostu onun üçün səhifə açıb. Nianın ailəsi həm məktəbi, həm də "İnstaqram"ı məhkəməyə verib. Proses zamanı 30 min dollarlıq məhkəmə xərclərinin ödənilməsini tələb edirlər. Mütəxəssislər ailələrə uşaqlarının adından açıla biləcək səhifələrlə bağlı xəbərdarlıq ediblər.

***Ləman Əlizadə***

# "Qardaş, "Barselona"da qalmalısan"

"Barselona"nın yeni transferi Pyer-Emerik Obameyanq komanda yoldaşı Usman Dembele haqda danışıb. Qol.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, o, fransalı oyunçunun Kataloniya təmsilçisində qalmasını istəyir: "Dembele ilə Dortmund "Borussiya"sında gözəl il keçirmişik və o, inanılmaz oyunçudur. Usman ən yaxşı top idarəçilərindən biridir və bir hücumçu kimi möhtəşəmdir. Düzünü desəm, o, burada olduğuna görə çox şadam. Dembeleyə dedim ki, "qardaş, qalmalısan" (gülür). Onun müqaviləni yeniləyib-yeniləməyəcini bilmirəm. Amma deyə biləcəyim yeganə şey odur ki, həyatda hər şey mümkündür". Qeyd edək ki, Dembelenin "Barselona" ilə müqaviləsi bu ilin yayı başa çatır. Xatırladaq ki, Obameyanq və Dembele 2016/2017 mövsümündə "Borussiya"da oynayıblar.

*MARAQLI FAKTLAR*

# Adaçayının min bir faydası bəlli oldu



Adaçayı qədim zamanlarda insanların həyatında becərilən möcüzəvi dərman bitkilərindən biridir. Adaçayının geniş şəkildə istehlakı, şübhəsiz ki, çoxlu faydaları ilə bağlıdır. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, adaçayı iki müxtəlif formada dəmlənir. Bunlardan birincisində adi çay kimi dəmlənir. Bu şəkildə adaçayı bir az acı dad alır. İkincidə kiçik bir budaq çay stəkanına qoyulur və üzərinə qaynar su əlavə edilir. Yerlilər onu "şaxələnmiş" adlandırırlar. Beləliklə, istədiyiniz rəng və qoxu göründəndə budağı çıxara bilərsiniz. Bu şəkildə hazırlanan adaçayı qoxusu daha yüngül və içmək daha xoşdur. Adaçayı saysız-hesabsız faydaları ilə başdan ayağa bədənimizə faydalı olan möcüzəvi bir bitkidir.

Bəs, adaçayı nə üçün faydalıdır?

1. Adaçayı depressiyaya yaxşı gəlir.
2. Bədəndən zərərli toksinləri çıxarmağa kömək edir.
3. Beyin fəaliyyətini yaxşılaşdırır
4. Bronxit və astma simptomlarını aradan qaldırır
5. Qaraciyəri təmizləyir
6. Sidik yollarının infeksiyasını müalicə etməyə kömək edir
7. Həddindən artıq tərləməni azaldır
8. Stressi azaldır.

***Leyla Həsənəliyeva***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**